RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 23 (9768) 2 fevral 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Tariximizin ən qürurlu vətənpərvər gəncliyi



## Bu nəsli Prezident İlham Əliyev yetişdirib

Prezident İlham Əliyevin gənclər siyasəti bu nəslin inkişafını, təhsilini, məşğulluğunu və cəmiyyətə inteqrasiyasını dəstəkləməyə yönəlmiş kompleks siyasətdir. Gənclərin keyfiyyətli təhsilalma imkanlarının genişləndirilməsi ən mühüm istiqamətlərdəndir. Azərbaycanda təhsilin bütün potensiallı gənclər üçün əlçatanlığı tam təmin olunmuş, ölkə gəncləri qarşısında geniş üfüqlər açılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş müvafiq dövlət proqramları sayəsində minlərlə gənc dünyanın müxtəlif ölkələrindəki ən nüfuzlu ali təhsil müəssisələrində yeni çağın bilik və bacarıqlarına yiyələnmişdir. Bu proqramın icrası hazırda geniş formada davam etdirilir və daha çox sayda gəncimiz dövlətimizin yaratdığı imkanlardan yararlanaraq xaricdə təhsil arzusuna qovuşur. Gənclərin inkişafının və asudə vaxtlarının səmərəli təşkili, onların məlumatlandırılması, yönəldilməsi, gənclərə sosial dəstəyin təmin olunması üçün respublikanın şəhər və rayonlarında müvafiq sosial xidmət mərkəzləri - Gənclər evləri yaradılmışdır.

Ölkəmizdə gənclərin təşkilatlanması üçün zəruri iqtisadi, hüquqi imkanlar yaradılmış, paytaxt və bölgələrdə müxtəlif gənclər təşkilatlarının, birliklərinin fəaliyyətinə geniş şərait yaradılmışdır. Gənclərin təşəbbüsləri son illərdə dövlət büdcəsindən maliyyələşən fondlar və digər təsisatlar vasitəsilə dəstəklənir. Gənclərin qeyri-hökumət təşkilatlarına yönləndirilmiş maliyyə vəsaitinin həcmi ilbəil artaraq gənclər arasında könüllülüyün dəstəklənməsini, onların liderlik bacarıqlarının artırılmasını və müəyyən mənada həm də məşğulluğunu təmin etmişdir. Ölkəmizdə könüllülük fəaliyyəti də son onilliklərin xoş ənənəsinə çevrilmiş, "ASAN Könüllüləri", "DOST Könüllüləri", "Bir Könüllü" və s. bu kimi layihələrdə iştirak minlərlə gəncimizin karyera yolunun ilk mühüm uğuruna çevrilmişdir.

Son illərdə Azərbaycan gəncliyinin inkişafı məqsədilə həyata keçirilən ən əhəmiyyətli və səmərəli layihələrdən biri də "Yüksəliş" müsabiqəsidir. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis edilmiş və ölkədə idarəetmə sahəsində istedadlı gənclərin aşkarlanması, inkişafı və karyera yüksəlişinə dəstək məqsədi daşıyan bu müsabiqə hər il təşkil edilməklə liderlik, idarəetmə bacarıqları və strateji düşüncə qabiliyyəti olan gəncləri üzə çıxararaq, onların dövlət və özəl sektorda rəhbər vəzifələrə hazırlanmasına kömək göstərir, dövlət və özəl sektorda yeni kadr rezervi formalaşdırır. İstedadlı gənclər üçün peşəkar mentorluq və təlim proqramları təqdim edir. Gənclərin şəxsi və peşəkar inkişafını dəstəkləyir. Azərbaycanın dövlət idarəçiliyində gənc kadrların rolunu artırır. İndiyə qədər on minlərlə gənc bu müsabiqəyə qoşularaq özünü sınamış, müsabiqənin qalibləri dövlət və özəl sektorda yüksək vəzifələrdə iş imkanı əldə etmişdir. Liderlik, strateji düşüncə və idarəetmə bacarıqlarını təkmilləşdirmiş, tanınmış dövlət və biznes liderlərindən bilik və təcrübə qazanmışdır. Bu müsabiqə gənclərin işgüzar əlaqələrinin inkişafına, digər təhsil və inkişaf proqramlarında iştirakına imkan yaratmışdır.

"Yüksəliş" müsabiqəsi gənclər arasında liderlik mədəniyyətini gücləndirmək və yüksəkixtisaslı kadr potensialı yaratmaq baxımından da vacib bir təşəbbüsdür. Buna paralel olaraq gənclərin dövlət idarəçiliyinə cəlb edilməsi və liderlik imkanlarının artırılması istiqamətində digər mühüm addımlar da atılır. Azərbaycan Prezidenti İlham Əliyev gənclərə böyük etimad göstərir, onlara mühüm vəzifələr həvalə edir, öz potensiallarını reallaşdırmalarına şərait yaradır.

Yeni nəsil həm də gələcəyin lideridir. Onların dayanıqlı inkişaf məqsədlərinə yönəlmiş startaplar yaratmaları, yaxud sosial təşəbbüslərə liderlik etmələri iqtisadi modellərin inkişafına çox böyük təkan verir. Xüsusilə, "yaşıl biznes"lərin qurulması gənclərin bu sahədə dayanıqlılığa töhfəsini göstərir. Bir faktı da qeyd edək ki, bütün dövrlərdə olduğu kimi, maarifləndirmə işi və ictimai şüurun yüksəldilməsi də dayanıqlı inkişafın ən vacib istiqamətlərindəndir. Gənclər bu sahədə də çox böyük potensiala, təsir gücünə malikdirlər. Onlar sosial media və digər rəqəmsal platformalardan istifadə edərək dayanıqlı inkişaf mövzusunda geniş kütləni maarifləndirə bilirlər. Gənclərin həyata keçirdikləri rəqəmsal kampaniyalar və təşəbbüslər iqlim dəyişikliyi, sosial bərabərlik və iqtisadi ədalət kimi məsələlərə diqqət çəkir.

→ 3

## Azərbaycanda gənclər siyasəti uğurla inkişaf etdirilir

2013-cü il iyulun 2-də Prezident İlham Əliyev tərəfindən ölkədə ilk dəfə "Gənclər üçün Prezidentin Mükafatı" təsis edilib. Bu qərar gənclərə dəstək verilməsi yönündə mühüm əhəmiyyət kəsb edib. Ölkə rəhbəri gənclərlə bağlı, onların dövlətimizin gələcəyi naminə daha böyük işlər görmələri üçün çox sayda qərarlar qəbul edib.

Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli sərəncamı ilə "Gənclərin xarici ölkənin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Dövlət proqramı çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclərin qəhrəmanlığı nəticəsində torpaqlarımız işğaldan azad edildi. Vətən müharibəsində canından keçənlərin, şəhidlik zirvəsinə ucalanların əksəriyyəti gənclərimizdir. Bu, müstəqil Azərbaycan dövlətinin inkişafında gənclərimizin xidmətini təsdiqləyən növbəti nümunənin təzahürüdür. Bugünkü müasir Azərbaycan gənclərinin dünyagörüşü daha fərqlidir, dünyada gedən proseslərə yaxşı bələddirlər, eləcə də yüksək analiz etmək qabiliyyətinə malikdirlər.

Lənkəran şəhərinin 2024-cü ildə Azərbaycanın "Gənclər paytaxtı" elan edilməsi dövlətimizin gənclərlə bağlı apardığı siyasətin ön planda olmasının sübutudur.

→ 4

## Azərbaycanın doqquzuncu beynəlxalq aeroportu Laçında tikilir

Təqdirəlayiq haldır ki, mövcud səkkiz aeroportun ikisi işğaldan azad edilmiş ərazilərimizdə yerləşir.

44 günlük Vətən müharibəsi zəfərlə başa çatandan az sonra Prezident İlham Əliyev Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verdi. 2021-ci il yanvarın 14-də təməlqoyma mərasimi oldu. Tikinti işləri qısa zamanda başa çatdırıldı və həmin il oktyabrın 26-da hava limanının rəsmi açılışı keçirildi. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdilər.

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini sürətləndirdi. Belə ki, hava limanı həmin ərazilərin bərpa və yenidən qurulması üçün zəruri olan yüklərin daha tez və asan daşınmasına şərait yaratdı. Eyni zamanda liman yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün geniş imkanlar açdı. Hava limanının açılması bölgədə turizmin inkişafına şərait yaradacaq. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin böyük sənaye, kənd təsərrüfatı və digər istehsal potensialını nəzərə alsaq, həmin ərazilərdə inşa olunan beynəlxalq hava limanları istehsal olunan məhsulların dünya bazarına sürətli çıxarılmasına imkan verəcək.

→ 10

## Aİ-nin pərdələnmiş missiyası

Yanvarın 7-də Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə Aİ-nin missiyasının fəaliyyətinə münasibət bildirərək "Bizimlə heç bir razılıq olmadan onlar, nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər" demişdi. Təbii ki, onların əsl məqsədləri deyildiyi kimi, regionda sülhün yaranmasına töhfə vermək deyil, əksinə, sülhə mane olmaqdır. Ona görə də Avropa İttifaqının bayrağı altında sərhədimizə gələrək ərazilərimizə binoklla baxış keçirir, guya qeydlər aparırlar. Əslində, onlar müşahidəçilər yox, hərbi kəşfiyyatçılardır.

Onların məqsədinin Azərbaycan ərazisində hərbi məlumatlar toplamaq və özlərinin hərbi qərargahlarına göndərməkdən ibarət olduğunu deyən A.Badamov bildirib ki, bir tərəfdən hərbi kəşfiyyat məlumatları yığırlar, digər tərəfdən də Ermənistanı silahlandırır və hərbi bazalarını qururlar: "Burda hansı sülh və etimada dəstək verməkdən söhbət gedə bilər? Sülh və etimad Azərbaycanla Ermənistan arasında ikitərəfli görüşlərlə əldə edilə bilər. Bu baxımdan bu günə qədər əldə olunmuş razılaşmalar da ikitərəfli formatda, kənar tərəflər olmadan yaranıb. Ermənistan regiona davamlı sülh və əməkdaşlığın gəlməsini istəyirsə, təxribatçı beynəlxalq missiyalardan imtina edərək konstruktivlik nümayiş etdirməlidir.



→ 9



## Rəsmi Paris istədiyinə nail olmayacaq

Fransa, Hindistan kimi ölkələr silah-sursat verməklə Ermənistanı astanasında olduğu sülh danışıqlarından uzaqlaşdırmağa, yaxın qonşusu olan Azərbaycanla yenidən münaqişəyə, müharibəyə sövq etməyə səy göstərirlər. Ancaq Ermənistan yenidən Cənubi Qafqazı münaqişə ocağına çevirməyə cəhd etsə, onun alovlarında yanan elə özü olacaq.

Fransa hökuməti riyakar, qarayaxma əməllərindən əl çəkmir. Yanvarın 29-da Senatda müzakirələr zamanı Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə qondarma müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd göstərdi.

→ 9

## Heç bir qüvvə Ermənistanı "dəmir yumruğ"un zərbəsindən qoruya bilməyəcək

Ermənistanın pulsuz şəkildə silahlandırılması hələ Vətən müharibəsinə qədərki dövr ərzində də həyata keçirilib. Ölkəsinin uzun illər Azərbaycanla münaqişə fonunda xarici qüvvələr tərəfindən pulsuz silahlandırılmasını mətbuata açıqlamasında Ermənistanın baş naziri Nikol Paşinyan da açıq şəkildə etiraf edib. Onun sözlərinə görə, Ermənistanın silah arsenalının əhəmiyyətli hissəsi əvvəllər heç bir ödəniş edilmədən, faktiki olaraq hədiyyə kimi əldə olunub.

Elə bu hərbi dəstəyə görə də Ermənistan onilliklər boyu sülh danışıqlarından yayınıb, torpaqlarımızın işğalını davam etdirib. Ancaq nə arxalandığı Qərb, nə aldığı silahlar, nə də qurduğu sədlər Ermənistanı "dəmir yumruğ"un qəzəbindən qoruya bilmədi. Biabırçı məğlubiyyətə uğrayan Ermənistan ordusu on bir mindən çox fərarisi olan utancverici ad qazandı. Həmçinin işğalçıya və təcavüzkara dəstək verən ölkələr Ermənistanı meydanda tək qoydular, ona heç bir kömək edə bilmədilər.

Ermənistan yenidən Azərbaycanla müharibəyə başlasa, eyni ssenari təkrar olunacaq, işğalçı və təcavüzkar ölkə məğlubiyyət anında arxalandığı güclərin heç birini yanında görməyəcək. Çünki Azərbaycan buna qətiyyən imkan verməyəcək.

→ 9



# Ədliyyə naziri Astarada vətəndaşların müraciətlərini dinləyib

**Ədliyyə naziri Fərid Əhmədov yanvarın 31-də Astara şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazir qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Astara, Lənkəran, Masallı, Lerik və Yardımlı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Azərbaycan və Rusiya arasında ticarət əməliyyatları artıb

**Ötən il Azərbaycanla Rusiya arasında ticarət əməliyyatlarının həcmi 4,8 milyard ABŞ dolları təşkil edib. Bu barədə Trend Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir.**




Məlumata görə, bu, 2023-cü ildəki göstərici ilə müqayisədə 441,1 milyon ABŞ dolları və ya 10,1% çoxdur.

Hesabat dövründə Rusiya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 10,08%-i həcmində olub.

Ötən il Azərbaycan Rusiyaya 1,2 milyard ABŞ dolları dəyərində məhsul ixrac edib ki, bu da 2023-cü ildəki göstəriciyə nisbətən 18,1 milyon ABŞ dolları və ya 1,5% azdır. Dövr ərzində Rusiya ilə ixrac əməliyyatları ölkənin ümumi ixracının 4,44%-ni təşkil edib.

2024-cü ildə Azərbaycan Rusiyadan məhsul idxalını illik müqayisədə 459,1 milyon ABŞ dolları və ya 14,5% artıraraq 3,6 milyard ABŞ dollarına çatdırıb. Dövr ərzində Rusiya ilə idxal əməliyyatları ölkənin ümumi idxalının 17,20%-ni təşkil edib.

Qeyd edək ki, 2024-cü il ərzində Azərbaycan xarici ölkələrlə (180 ölkə) 47,6 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb.

Məlumata görə, bu, 2023-cü ilə nisbətən 3,6 milyard ABŞ dolları və ya 7% azdır.

Xarici ticarət dövriyyəsinin 26,5 milyard ABŞ dolları ixracın, 2,6 milyard ABŞ dolları isə idxalın payına düşüb.

Son 1 ildə ixrac 7,3 milyard ABŞ dolları və ya 21,7% azalıb, idxal isə 3,8 milyard ABŞ dolları və ya 21,8% artıb.

Nəticə etibarilə xarici ticarətdə 5,5 milyard ABŞ dolları həcmində müsbət saldo yaranıb. Bu da illik müqayisədə 3 dəfə azdır.

# Azərbaycan-Qırğızıstan Fondu Qırğızıstanda su elektrik stansiyasının inşasının maliyyələşməsini təsdiqləyib

**Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun Şurası (AQİF) Qırğızıstanda 9 meqavat gücdə kiçik su elektrik stansiyasının inşasının maliyyələşdirilməsini təsdiqləyib.**



Trend Qırğızıstan İqtisadiyyat və Kommersiya Nazirliyinə istinadən xəbər verir ki, Fondun Şurasının Bakıda keçirilən 4-cü iclasında bir sıra layihələr, o cümlədən 300 iş yeri olacaq tikiş fabrikinin inşası ilə bağlı layihə təsdiq olunub.

İclasın yekunlarına əsasən, Fondun investisiya siyasəti və onun fəaliyyəti üçün digər sənədləri təsdiqlənib. Bundan başqa, çoxfunksiyalı mərkəzin tikintisinin maliyyələşməsi ilə bağlı konsepsiya təsdiqlənib.

İclasın gedişində Qırğızıstanla Azərbaycan arasında ticari-iqtisadi əməkdaşlığın artıq yeni mərhələyə qədəm qoyduğu və bütün istiqamətlərdə inkişaf etməyə davam etməsi vurğulanıb. Həmçinin iclas iştirakçıları Fondun prioritet istiqamətlərinə uyğun gələn perspektivli layihələrin portfelinin formalaşdırılması üzrə aktiv işlərin davam etdirilməsinə dair göstəriş verib.

Xatırladaq ki, Azərbaycan-Qırğızıstan Fondu 2023-cü ildə 25 milyon dollarlıq nizamnamə kapitalı ilə yaradılıb. Fondun başlıca məqsədi iki ölkə arasında iqtisadi əməkdaşlığa vasitəçilik etməkdir. Qırğızıstan prezidentinin 24 aprel 2024-cü ildə Bakıya rəsmi səfəri zamanı Fondun nizamnamə kapitalını 100 milyon dollara qədər artırmış əlavə saziş imzalanıb.

# SOCAR ilə Pakistan şirkətləri arasında yeni əməkdaşlığın inkişafı vurğulanıb

**SOCAR-ın prezidenti Rövşən Nəcəf Pakistan İslam Respublikasının özəlləşdirmə, nəqliyyat və investisiya naziri Aleem Khan ilə görüşüb.**



SOCAR-dan AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb.

Söhbət zamanı SOCAR ilə Pakistanın neft-qaz sahəsində fəaliyyət göstərən şirkətləri arasında hazırda müzakirə edilən layihələrin statusu, əldə edilmiş irəliləyişlər, hədəflərlə bağlı fikir mübadiləsi aparılıb, yeni əməkdaşlıq imkanları nəzərdən keçirilib.

# Türkiyə mediası erməniəsilli deputatın Azərbaycan əleyhinə bəyanatlarını tənqid edib

**Türkiyə mediası Xalqların Demokratiya Partiyasından (HDP) olan erməniəsilli millət vəkili Qaro Paylanın Azərbaycan əleyhinə bəyanatlarını tənqid edib.**

AZƏRTAC xəbər verir ki, "Yeni Akit" qəzeti "Hələ bu adam Türkiyənin çörəyini də yeyir" sərlövhəli məqaləsində deputatın Ermənistanın "3-5 il ərzində" Azərbaycana qarşı yeni təcavüzə hazırlaşması ilə bağlı sözlərinə diqqət çəkib.

Nəşr Qaro Paylanın Ermənistanın baş naziri Nikol Paşinyanla fotoşəklini paylaşıb, həmçinin onun erməni mətbuatına müsahibəsindən parçalara istinadla deputatın digərləri ilə yanaşı, İrəvanı "ABŞ və Fransanın güclü dəstəyini almağa" çağırdığını da qeyd edib.










Məşhur xəbər resursu "Haber7.com" da Türkiyə millət vəkilinin qalmaqallı müsahibəsini oxuculara çatdırıb. Portal həmçinin Qaro Paylanın mediada sözlərinin təhrif edilməsini əsas gətirərək Azərbaycana qarşı hücumlarını ört-basdır etməyə tələsdiyi müsahibədən sonra sosial şəbəkədəki paylaşımına da istinad edib.

# Qarsda Qərbi Azərbaycan İcmasının nümayəndəliyinin açılması Qayıdış Konsepsiyasına töhfə olardı

**"Türkiyənin Ermənistanla həmsərhəd olan Qars şəhərində Qərbi Azərbaycan İcması nümayəndəliyinin açılması Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsinə töhfə verərdi".**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Türkiyənin Qars vilayətindəki baş konsulu Zamin Əliyev bildirib. Diplomat Qərbi Azərbaycandakı tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların övladlarının hazırda Türkiyədə yaşadığını diqqətə çatdırıb.




"Qərbi Azərbaycandan deportasiya edilən bəzi soydaşlarımız bir vaxtlar Anadoluya gəliblər. Onların əhəmiyyətli bir hissəsi Qarsda məskunlaşıb. Bu gün həmin insanlar Türkiyə vətəndaşları kimi qardaş ölkənin inkişafına mühüm töhfələr verirlər" - deyən diplomat Qərbi Azərbaycandan olan insanların öz tarixi vətənlərini heç vaxt unutmadıqlarını vurğulayıb.

"Bu gün Qərbi Azərbaycandan olan insanlar İcmanın fəaliyyətini diqqətlə izləyirlər" - deyən Z.Əliyev ötən ilin dekabrında İzmirdə Qərbi Azərbaycan İcmasının ilk xarici nümayəndəliyinin açılmasını yüksək qiymətləndirib.

Baş konsul vurğulayıb: "İzmirdə ofis açmaq ən yüksək qiymətə layiq bir addımdır. Eyni zamanda, inanırıq ki, Qərbi Azərbaycan İcmasının Qarsda təmsil olunması həm də onun maraqlarına və Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsinə töhfə verəcək".

# Türkiyə MN Azərbaycan hərbçilərinin də iştirak etdiyi təlimdən yeni görüntülər paylaşıb

**Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycanın da iştirak etdiyi "Qış təlimi-2025" hərbi təlimlərindən yeni görüntülər paylaşıb.**



"Report" xəbər verir ki, bu barədə nazirliyin "X" hesabında paylaşım edilib.

Görüntülərdə təlim iştirakçılarının qarlı və dağlıq ərazilərdə yerinə yetirdiyi çətin tapşırıqlar əks olunur. Nazirlik bəyan edib ki, təlim uğurla davam edir.

Qeyd edək ki, müxtəlif ölkələrdən 12 mindən çox hərbçinin iştirak etdiyi təlimlərdə Azərbaycan da şəxsi heyətlə təmsil olunur.

# Hərbi İdarəetmə İnstitutunun Xarici dil mərkəzində ingilis dili kursları yekunlaşıb

**Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Xarici dil mərkəzinin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının təşkilatçılığı ilə keçirilən intensiv ingilis dili kursları yekunlaşıb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kursların yekunlaşması münasibətilə Hərbi İdarəetmə İnstitutunda buraxılış mərasimi keçirilib.

Tədbirdə çıxış edən Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini, Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov, Birləşmiş Krallığın ölkəmizdəki səfiri Fergus Auld və Britaniya Şurasının "Britaniya Konsul" təşkilatının Azərbaycan Respublikasındakı filialının direktoru Nərgiz Hacıyeva kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.





Kurs birinciləri yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də ingilis dilinin öyrədilməsində əməyi keçən professor və müəllim heyətinə dinləyicilər adından dərin minnətdarlıqlarını bildiriblər. Sonda məzunlara sertifikatlar təqdim olunub.

# 2 Fevral Azərbaycan Gəncləri Günüdür



**Son onilliklərdə ölkəmizdə insan potensialının inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətinin rolu çox böyükdür. Bu siyasət əhalinin müxtəlif təbəqələri kimi gənclər üçün də yeni səviyyədə iqtisadi imkanların yaradılmasına, hüquqların genişləndirilməsi və maddi təminatın möhkəmləndirilməsinə xidmət edir.**

## Tariximizin ən qürurlu vətənpərvər gəncliyi

Ötən onilliklər ərzində əhalinin, o cümlədən Azərbaycan gəncliyinin sosial müdafiə sistemi təkmilləşdirilmiş, aktiv məşğulluq siyasətinə əsaslanan əmək bazarı formalaşdırılmış, yoxsulluğa qarşı mübarizə uğurlu nəticələr vermişdir. Bütün bunlarla paralel olaraq mədəni irsin qorunması, gənclərlə iş və idman siyasətinin çevikliyinin artırılması, demoqrafiya və miqrasiya məsələlərinin effektiv tənzimlənməsi kimi vacib tədbirlər hesabına yeni nəsil üçün yüksək sosial rifah və insan kapitalının inkişafı təmin olunmuşdur.

Yenilik və inkişaf meyillərinin ilk növbədə gənc nəslin maraqlarında, davranışlarında, həyata baxışında, istək və arzularında, hədəflərində təzahür etməsi bütün cəmiyyətlərə xas qanunauyğunluqdur. Eyni zamanda gənclər potensiallarını, istedadlarını, enerjilərini düzgün məcraya yönəltmək, doğru dəyərlər, ideallar arasında seçim etmək, sağlam mühitdə yetişmək, ziyanlı təsirlərdən qorunmaq üçün hər zaman köməyə, müəyyən istiqamətə ehtiyac duyan həssas sosial qrupdur. Məsələnin həssaslığı həm də ondadır ki, bütün cəmiyyətlərdə gənclər cəmi bir neçə ildən sonra o cəmiyyətin gələcəyini formalaşdırırlar. Ona görə də istənilən ölkənin indiki gəncliyini müşahidə etməklə həmin ölkənin gələcəyi haqqında müəyyən təsəvvürlər formalaşdırmaq mümkündür.

Gənclər dayanıqlı inkişafın bütün aspektlərində - sosial, iqtisadi və ekoloji sahələrdə fəal iştirak edərək həm mövcud problemlərin həllinə töhfə verir, həm də yeni yanaşmalar ortaya qoyurlar.

### Uğurlu gənclər siyasətinin möhkəm təməlləri

Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu gənclər siyasəti möhkəm təməllərə söykənir. Bu təməlləri Ümummilli Lider Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə formalaşdırmışdır. Gənclik qarşısındakı yeni çağırışları, gələcək strateji inkişaf istiqamətlərini aydın görən Ulu Öndərin davamlı səyləri nəticəsində Azərbaycan gənclərinin məişət, təhsil, mədəni tələbatının ödənilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmiş və bütün bunlar qısa zamanda effektiv nəticələr vermişdir.

İstənilən ölkədə gəncliyə veriləcək ən böyük dəstək, onlara bağışlanan ən qiymətli sərvət yüksək təhsil imkanının, dövrün şərtlərinə uyğun bilik və bacarıqlara yiyələnməkdən ötrü şəraitin yaradılmasıdır. Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə öz təşəbbüsü ilə hər il minlərlə Azərbaycan gəncini keçmiş SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə, ölkəmizdə böyük ehtiyac duyulan ixtisaslar üzrə təhsil almağa göndərməsi, onlara göstərdiyi atalıq qayğısı o dövrə aid ən parlaq tarixi faktlardandır. Həmin gənclər təhsil aldıqları uzaq şəhərlərdən Azərbaycana yüksəkixtisaslı mütəxəssislər kimi qayıdaraq bir neçə ildən sonra dövlət müstəqilliyini elan edəcək ölkəmizin inkişafına layiqli töhfələrini vermişlər. Həmin illərdə Azərbaycan gəncliyinin zamanın ruhuna uyğun yetişməsi, asudə vaxtının səmərəli təşkili üçün də hər bir yaşayış məntəqəsində zəruri infrastruktur yaradılmış, onların hərtərəfli inkişafının təmin olunmasına xidmət edən maddi-texniki baza formalaşdırılmış, həmçinin ictimai-siyasi həyatda gənclərin fəallığını stimullaşdıran müxtəlif tədbirlər görülmüş, təhsil imkanlarının Azərbaycan gəncliyi üçün tam əlçatanlığı ilə yanaşı, onların məşğulluğu, mənzil şəraiti ilə bağlı məsələlər də öz həllini tapmışdır.

Azərbaycan gəncliyi Ümummilli Liderin gənc nəslə olan inamını hər zaman doğrultmuşdur. Ötən əsrin 80-ci illərinin sonlarından başlanan istiqlal mübarizəmizdə, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən haqq savaşımızda gənclərimiz fəal iştirak etmiş, Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması üçün minlərlə gənc həyat və sağlamlığını qurban vermişdir.

### Azərbaycan gəncliyi qarşısında yeni üfüqlər

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə o dövrdə çətin sınaqlarla üzləşmiş Azərbaycanı faciələrdən qorumaq üçün ali hakimiyyətə qayıtdıqdan sonra da gənclər siyasətinə ümumi dövlət siyasətinin əsas prioritetlərindən biri kimi yanaşmış, bu istiqamətdə əhəmiyyətli addımlar atmışdır. Azərbaycanın müstəqilliyinin ilk illərində gəncliyimiz yeni çağırışlarla üz-üzə idi. Yeni sosial-iqtisadi, mədəni-mənəvi reallıqlar dövründə bu nəslin müxtəlif problemlərini koordinasiyalı şəkildə həll etmək, onları və gənclərlə birgə Azərbaycanı gələcəyə hazırlamaq, ölkə gəncliyini müxtəlif qrupların ziyanlı təsirlərindən qoruyaraq düzgün istiqamətə yönəltmək lazım gəlirdi. Ümummilli Lider Heydər Əliyev bütün taleyüklü məsələlər kimi bunu da bacardı. Bu böyük dövlət adamının təşəbbüsü ilə gənclər siyasətini tənzimləyən normativ hüquqi baza və onun həyata keçirilməsi üçün cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanı - Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclərin problemlərinin həlli üçün müxtəlif dövlət qurumları arasında fəaliyyət əlaqələndirildi. Beynəlxalq təşkilatlarla əməkdaşlığın təməli qoyuldu. Gənclərin sağlamlığı, təhsili, məşğulluğu, sosial müdafiəsi və digər sahələrdə genişmiqyaslı tədbirlər həyata keçirildi. 1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin I Forumunun yüksək səviyyədə keçirilməsi, Ulu Öndər Heydər Əliyevin həmin forumda iştirakı, gəncləri dinləməsi, bu tarixi gün münasibətilə fevralın 2-sinin ölkəmizdə Azərbaycan Gəncləri Günü elan edilməsi, gənclər təşkilatlarının və onların ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təsis olunması ölkə gənclərinə qayğının bariz nümunəsi olmuşdur. Bu, Heydər Əliyevin gəncilyə göstərdiyi diqqətin bir nümunəsi idi.

Ən əsas nəticə isə odur ki, müstəqil Azərbaycanda gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasəti formalaşdırılmışdır və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla həyata keçirir. Ölkəmizdə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da qəbul olunmuşdur.

### Kompleks yanaşma

Prezident İlham Əliyevin gənclər siyasəti bu nəslin inkişafını, təhsilini, məşğulluğunu və cəmiyyətə inteqrasiyasını dəstəkləməyə yönəlmiş kompleks siyasətdir. Gənclərin keyfiyyətli təhsilalma imkanlarının genişləndirilməsi ən mühüm istiqamətlərdəndir. Azərbaycanda təhsilin bütün potensiallı gənclər üçün əlçatanlığı tam təmin olunmuş, ölkə gəncləri qarşısında geniş üfüqlər açılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş müvafiq dövlət proqramları sayəsində minlərlə gənc dünyanın müxtəlif ölkələrindəki ən nüfuzlu ali təhsil müəssisələrində yeni çağın bilik və bacarıqlarına yiyələnmişdir. Bu proqramın icrası hazırda geniş formada davam etdirilir və daha çox sayda gəncimiz dövlətimizin yaratdığı imkanlardan yararlanaraq xaricdə təhsil arzusuna qovuşur. Gənclərin inkişafının və asudə vaxtlarının səmərəli təşkili, onların məlumatlandırılması, yönəldilməsi, gənclərə sosial dəstəyin təmin olunması üçün respublikanın şəhər və rayonlarında müvafiq sosial xidmət mərkəzləri - Gənclər evləri yaradılmışdır.

Ölkəmizdə gənclərin təşkilatlanması üçün zəruri iqtisadi, hüquqi imkanlar yaradılmış, paytaxt və bölgələrdə müxtəlif gənclər təşkilatlarının, birliklərinin fəaliyyətinə geniş şərait yaradılmışdır. Gənclərin təşəbbüsləri son illərdə dövlət büdcəsindən maliyyələşən fondlar və digər təsisatlar vasitəsilə dəstəklənir. Gənclərin qeyri-hökumət təşkilatlarına yönləndirilmiş maliyyə vəsaitinin həcmi ilbəil artaraq gənclər arasında könüllülüyün dəstəklənməsini, onların liderlik bacarıqlarının artırılmasını və müəyyən mənada həm də məşğulluğunu təmin etmişdir. Ölkəmizdə könüllülük fəaliyyəti də son onilliklərin xoş ənənəsinə çevrilmiş, "ASAN Könüllüləri", "DOST Könüllüləri", "Bir Könüllü" və s. bu kimi layihələrdə iştirak minlərlə gəncimizin karyera yolunun ilk mühüm uğuruna çevrilmişdir.

Son illərdə Azərbaycan gəncliyinin inkişafı məqsədilə həyata keçirilən ən əhəmiyyətli və səmərəli layihələrdən biri də "Yüksəliş" müsabiqəsidir. Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis edilmiş və ölkədə idarəetmə sahəsində istedadlı gənclərin aşkarlanması, inkişafı və karyera yüksəlişinə dəstək məqsədi daşıyan bu müsabiqə hər il təşkil edilməklə liderlik, idarəetmə bacarıqları və strateji düşüncə qabiliyyəti olan gəncləri üzə çıxararaq, onların dövlət və özəl sektorda rəhbər vəzifələrə hazırlanmasına kömək göstərir, dövlət və özəl sektorda yeni kadr rezervi formalaşdırır. İstedadlı gənclər üçün peşəkar mentorluq və təlim proqramları təqdim edir. Gənclərin şəxsi və peşəkar inkişafını dəstəkləyir. Azərbaycanın dövlət idarəçiliyində gənc kadrların rolunu artırır. İndiyə qədər on minlərlə gənc bu müsabiqəyə qoşularaq özünü sınamış, müsabiqənin qalibləri dövlət və özəl sektorda yüksək vəzifələrdə iş imkanı əldə etmişdir. Liderlik, strateji düşüncə və idarəetmə bacarıqlarını təkmilləşdirmiş, tanınmış dövlət və biznes liderlərindən bilik və təcrübə qazanmışdır. Bu müsabiqə gənclərin işgüzar əlaqələrinin inkişafına, digər təhsil və inkişaf proqramlarında iştirakına imkan yaratmışdır.

"Yüksəliş" müsabiqəsi gənclər arasında liderlik mədəniyyətini gücləndirmək və yüksəkixtisaslı kadr potensialı yaratmaq baxımından da vacib bir təşəbbüsdür. Buna paralel olaraq gənclərin dövlət idarəçiliyinə cəlb edilməsi və liderlik imkanlarının artırılması istiqamətində digər mühüm addımlar da atılır. Azərbaycan Prezidenti İlham Əliyev gənclərə böyük etimad göstərir, onlara mühüm vəzifələr həvalə edir, öz potensiallarını reallaşdırmalarına şərait yaradır.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə 2013-cü ildə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də bu istiqamətdə atılmış ən mühüm addımlardandır. Bu mükafat istedadlı və yaradıcı gənclərin üzə çıxarılmasına, dəstəklənməsinə xidmət edir, onların nailiyyətlərinin qiymətləndirilməsi və stimullaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Yeni nəsil həm də gələcəyin lideridir. Onların dayanıqlı inkişaf məqsədlərinə yönəlmiş startaplar yaratmaları, yaxud sosial təşəbbüslərə liderlik etmələri iqtisadi modellərin inkişafına çox böyük təkan verir. Xüsusilə, "yaşıl biznes"lərin qurulması gənclərin bu sahədə dayanıqlılığa töhfəsini göstərir. Bir faktı da qeyd edək ki, bütün dövrlərdə olduğu kimi, maarifləndirmə işi və ictimai şüurun yüksəldilməsi də dayanıqlı inkişafın ən vacib istiqamətlərindəndir. Gənclər bu sahədə də çox böyük potensiala, təsir gücünə malikdirlər. Onlar sosial media və digər rəqəmsal platformalardan istifadə edərək dayanıqlı inkişaf mövzusunda geniş kütləni maarifləndirə bilirlər. Gənclərin həyata keçirdikləri rəqəmsal kampaniyalar və təşəbbüslər iqlim dəyişikliyi, sosial bərabərlik və iqtisadi ədalət kimi məsələlərə diqqət çəkir.

### Yeniliklərə həssaslıq, dəyərlərə hörmət

Əhalinin əhəmiyyətli hissəsini təşkil edən gənclər ölkənin əsas innovativ potensialı, əmək resursudur. Gənc mütəxəssislərin bilik və bacarıq səviyyəsi ilə əmək bazarının və işəgötürənlərin tələbləri arasında uyğunluğun təmin olunması məqsədilə də ölkəmizdə addımlar atılır. Əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli gənc kadr potensialı formalaşdırılır. Onların mərkəzi şəhərlərimizlə yanaşı, ucqarlarda da çalışmağa həvəsləndirilməsi istiqamətində stimullaşdırıcı tədbirlər həyata keçirilir, o cümlədən zəruri məişət və məşğulluq infrastrukturu yaradılır. Ölkəmizdə xüsusilə peşə təhsili sürətlə inkişaf etdirilir. Gənclər arasında peşə təhsili alanların sayı getdikcə artır. Gənc məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi səviyyəsinin yüksəldilməsi, gənclər arasında işsizliyin aşağı salınması istiqamətində addımlar atılır.

Gənclərin elm və innovasiya sahələrində fəallığının artırılması məqsədilə stimullaşdırıcı layihələr reallaşdırılır, startap ekosisteminin inkişafına dəstək verilir. Azərbaycan gəncliyinin sahibkarlıq ruhu, yaradıcı potensialı üzə çıxarılır. Gənc sahibkarlara müxtəlif dəstək proqramları ilə gənclər arasında sahibkarlığa marağın artması təşviq olunur, onların innovativ bizneslərinin inkişafı dəstəklənir. Gənc sahibkarların sayı getdikcə artır. Bu nəsil üçün davamlı şəkildə təcrübə və mentorluq proqramları təşkil olunur, rəqəmsal bacarıqları artırılır. Süni intellekt, data analitikası və digər müasir texnologiyalar gənclər arasında populyarlaşdırılır. Texnoloji inkişafa, mütərəqqi qlobal meyillərin mənimsənilməsinə paralel olaraq gənclərimizin soykökümüzə, adət-ənənələrimizə, milli-mənəvi dəyərlərimizə bağlılığı üçün də əhəmiyyətli layihələr həyata keçirilir.

Ümumən gənclərin rəqəmsal iqlim inqilabında fəal iştirakı yalnız texnologiya ilə deyil, həm də yaradıcılıq və kollektiv cəhdlərlə mümkündür. Bu həm planetin qorunmasına, həm də daha çox texnoloji və dayanıqlı bir gələcək qurulmasına kömək edir. Bu baxımdan ötən il ölkəmizdə keçirilən COP29-un panel müzakirələri çərçivəsində iştirakçılara qabaqcıl rəqəmsal platformaların, süni intellektlə işləyən həllərin və real vaxt rejimində ətraf mühitin monitorinqini təmin edən innovativ proqram təminatlarının təqdim olunması çox əhəmiyyətlidir. Bu vasitələr arasında məlumat əsaslı təbliğat vasitələri, iqlim məlumatlarının vizuallaşdırılması üçün istifadə olunan proqram təminatları və gənclərin iqlim fəaliyyəti sahəsində daha aktiv iştirakına şərait yaradan rəqəmsal tətbiqlər yer alıb. Rəqəmsal texnologiyaların iqlim dəyişmələrinə qarşı mübarizədə tətbiqinin genişləndirilməsi, bu sahədə əməkdaşlığın gücləndirilməsi və rəqəmsal həllərin inklüzivliyinin təmin edilməsindəki əhəmiyyəti ifadə edilib.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilir. Müasir dünyamızın bilik və bacarıqlarına ən yüksək səviyyədə yiyələnərək qlobal əmək bazarında özünə layiqli yer tutmaq, innovasiyaları mənimsəmək, özünü yeniliklərə daim hazırlamaq və onların önündə irəliləmək, eyni zamanda milli kimliyi də heç zaman unutmamaq, tariximizi, ənənələrimizi, dəyərlərimizi yaşatmaq, ulularımızın mənəvi mirasını yaşatmaq, Vətəni sevmək, onun maraqlarına xidmət etmək də gənclər siyasətinin ən əsas istiqamətləridir. Azərbaycan Respublikası Prezidentinin ölkə gəncliyinə ən mühüm tövsiyəsi, onlardan ən böyük gözləntisi məhz budur.

Bugünkü Azərbaycan gəncliyi tariximizin ən vətənpərvər gəncliyidir. Bu gəncliyi Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yetişdirib. Bu, uzun illərin mübarizələrindən sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimizin ərazi bütövlüyünü, suverenliyini təmin edən gənclikdir. Şuşanın sərt qayalarından kəndirlə dırmanaraq yüngül silahlarla yağının tankının-topunun üzərinə atılan, düşməni doğma yurdlarımızdan qovub çıxaran, haqq savaşımızda Zəfər qazanıb əzəli məskənlərimizdə üçrəngli bayrağımızı ucaldan gənclikdir.

Azərbaycanın tarixi bu gəncliklə şanlıdır, gələcəyi də bu gəncliklə aydındır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Gənclər Günü münasibətilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda tədbir təşkil edilib



**Fevralın 1-də Qərbi Azərbaycan İcmasında Gənclər Şurasının təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda toplantı keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclərin rolu və dəstəyi mühüm əhəmiyyət daşıyır. O qeyd edib ki, deportasiya ilə bağlı reallıqların, eləcə də irsimizin nəsildən-nəslə ötürülməsi məhz gənclərin bu həqiqətlər barədə olan biliklərinə əsasən baş verir.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov çıxışında gənclərin Qərbi Azərbaycana qayıdış məsələsində fəal iştirakının, həm bölgənin mədəni irsinin qorunması, həm də gənclərin bu prosesdə aktiv rol almaları baxımından böyük əhəmiyyət kəsb etdiyini deyib. O vurğulayıb ki, gənclər eyni zamanda yeni ideyalar və təşəbbüslərlə cəmiyyəti irəliyə apararaq, bir çox sahədə böyük uğurlar əldə edirlər.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının aparatında gənclərlə iş üzrə məsul şəxs Anar İrzaquliyev bildirib ki, Gənclər Şurasının strukturunun yenilənmiş forması hazırlanıb. O, Gənclər Şurasının yenilənmiş strukturunun sədr və 2 sədr müavinindən ibarət olduğunu deyib.

Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının və Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov gənclərin günümüzün aparıcı qüvvəsi olaraq Qərbi Azərbaycanla bağlı daha ətraflı məlumata malik olmalarının vacibliyini qeyd edib. O bildirib ki, gənclərin istər təmsil olunduqları platformalar, istər sosial media, istərsə də digər ölkələrdəki fəaliyyətləri zamanı qərbi azərbaycanlıların ötən əsrdə üzləşdikləri deportasiya və soyqırımları ilə bağlı həqiqətləri çatdırmaları aparılan işdə önəmli rola malikdir.

"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı təmsil etdiyi təşkilatın Qərbi Azərbaycan İcması ilə birlikdə bu istiqamətdə gördüyü fəaliyyətə toxunub, gənclərin təşkil edilən bütün tədbirlərdə fəallıq göstərdiyini vurğulayıb.

Qərbi Azərbaycan İcmasının üzvü Həsən Əhmədov və Fidan İbrahimova çıxışlarında öz timsallarında gənclərin üzərinə Qərbi Azərbaycan məsələsi ilə bağlı düşən məsuliyyəti anladıqlarını vurğulayıb, gənc nəsil olaraq bu müqəddəs amalla əlaqədar bütün güclərini sərf edəcəklərini bildiriblər.

Sonra əslən Qərbi Azərbaycandan olan və bir sıra uğurlara imza atan 15 gənc, eləcə də icma ilə səmərəli əməkdaşlığa görə 10 gənclər təşkilatı mükafatlandırılıb.

Daha sonra İcmanın müxtəlif tədbirlərində iştirak etmiş 30 gəncə üzvlük vəsiqələri təqdim edilib.

Sonda çıxış edən Şahin İsmayılov fevralın 2-dən etibarən Qərbi Azərbaycan İcması Gənclər Şurası tərəfindən "Gənclər arasında Qərbi Azərbaycan mövzusunda ideya müsabiqəsi"nin keçiriləcəyini diqqətə çatdırıb. O bildirib ki, bu müsabiqə gənclərimizi Qərbi Azərbaycan mövzusu ilə daha yaxından tanış etmək və onların yaradıcı düşüncələrini ortaya qoymalarına imkan yaratmaq məqsədi daşıyır.

"Müsabiqənin əsas məqsədi gənclərimizin Qərbi Azərbaycanla bağlı fikirlərini və ideyalarını sosial, mədəni və tarixi aspektlərdən təhlil etmək, həmçinin onların bu mövzuda daha geniş məlumatlı olmalarını təmin etməkdir. Müsabiqəyə yaş məhdudiyyəti olmadan bütün gənclər qatılacaq və hər bir iştirakçının ideyası və layihəsi qiymətləndiriləcək", - deyə Ş.İsmayılov qeyd edib.

## *İcma sədri:* "Tarixi torpaqlarımıza qayıdış uğrunda mübarizəmiz xeyli dərəcədə gənclərimizdən asılıdır"

**"Qərbi Azərbaycan İcması olaraq bu gün apardığımız tarixi torpaqlarımıza qayıdış uğrunda mübarizəmiz xeyli dərəcədə gənclərimizdən asılıdır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli söyləyib. İcma sədri Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətindən danışıb: "Gənclər siyasətinin mahiyyəti bilikli, savadlı, bacarıqlı, milli dəyərlərimizə hörmət edən gəncliyi yetişdirməkdir. Ölkəmizin, millətimizin gələcəyi gənclərdən asılıdır", - deyə o diqqətə çatdırıb.

## *Şahin İSMAYILOV:* "Gənclər təşkilatlarının Qərbi Azərbaycana qayıdış məsələlərində fəal iştirak etmələri çox böyük önəm daşıyır"

**"Ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının Qərbi Azərbaycana qayıdış məsələlərində aktiv şəkildə iştirak etmələri çox böyük önəm daşıyır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının və Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov deyib. O bildirib ki, gənc nəslin fəal iştirakı qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması istiqamətində məqsədə çatmasına kömək göstərəcək. "Bu il üçün kifayət qədər önəmli işlər nəzərdə tutulub. Onlar həm yerli, həm də beynəlxalq səviyyədə fəaliyyətin qurulmasını və Qərbi Azərbaycan ideyalarının daha geniş coğrafiyaya yayılmasını əhatə edir", - deyə Ş.İsmayılov qeyd edib.

# 2 Fevral Azərbaycan Gəncləri Günüdür

## Azərbaycanda gənclər siyasəti uğurla inkişaf etdirilir

**Müstəqil Azərbaycanın gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərimizin aydın strategiyası müstəqilliyimizin ilk illərində gənclərin enerji və imkanlarını milli maraqlarımızın müdafiəsinə səfərbər etdi, onların vətənpərvər ruhda formalaşmasına zəmin yaratdı.**

Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan gənclərinə inandığını, dövlətimizin gələcək inkişafında onların üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edirdi. Bu gün gənclərimizin ölkənin siyasi, sosial-iqtisadi sahələrində mühüm vəzifələrə təyin olunması, onlara böyük etimad göstərilməsi Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin davamıdır. Azərbaycan Sovetlər Birliyinin tərkibində olduğu zaman Heydər Əliyev minlərlə gənci keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərmişdi. Həmin gənclər bu gün ölkəmizdə müxtəlif sahələrdə savadlı və təcrübəli mütəxəssis kimi dövlətimizə böyük fayda verməkdədirlər.

1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra gənc nəslə diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Gəncləri "Azərbaycanın gələcəyi" adlandıran Heydər Əliyev onlara hər zaman qayğı göstərməyin vacibliyini diqqətə çəkirdi. Müasir dünyada güclü demokratik dövlət quruculuğunda gənclərin rolunu düzgün qiymətləndirən dahi şəxsiyyət bütün sahələrdə onlara böyük etimad göstərirdi. Dövlət orqanlarında gənclərin fəaliyyətinin genişləndirilməsi və onları bir-biri ilə əlaqələndirmək məqsədilə Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı.

Azərbaycan gəncliyinin inkişafında və gənclərin dövlət qurumlarına inteqrasiya olunmasında Ulu Öndərin böyük xidmətləri olub. 1997-ci il fevralın 2-də Azərbaycanda "Gənclər Günü"nün elan olunması ilə bağlı fərman bu sahədə atılan növbəti addım oldu. Gənclər hərəkatının təşkilatlanması istiqamətində dövlət dəstəyinin göstərilməsi ilə bağlı Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar, həyata keçirdiyi tədbirlər gəncliyin inkişafında mühüm əhəmiyyət kəsb edib. 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilməyə başlanıldı. Həmin il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev tarixi çıxış edərək gənclərin qarşısına şərəfli vəzifə qoydu. Ulu Öndər hər bir gəncin ən əsas vəzifəsinin müstəqil Azərbaycanın bu gününü və gələcəyini düşünməli olduğunu vurğuladı. Forumda gənclərin görəcəkləri işlər barədə öz tövsiyələrini, eləcə də onları narahat edən problemlərin həlli istiqamətində tədbirlərin görülməsi



üçün əlaqədar təşkilatlara ciddi tapşırıqlarını verdi.

Heydər Əliyevin "Dövlət gənclər siyasəti haqqında" fərmanı Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait yaratdı. Sənəddə Gənclər və İdman Nazirliyi nəzdində gənclərin problemləri üzrə elmi araşdırmaların aparılması mərkəzinin yaradılması nəzərdə tutulurdu.

Ümummilli Liderin gənclərlə bağlı fikirləri və onun yaratdığı fəlsəfi ideyalar bu gün də aktualdır. Müdrik şəxsiyyətin əsasını qoyduğu bu siyasi kurs hazırda Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir. Möhtərəm Prezidentimiz dövlət tərəfindən gənclərin rifahına xidmət edən bir sıra dövlət proqramlarını təsdiq edib. Dövlət başçımız 2007-ci ili "Gənclər ili" elan edib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" və 2019-2023-cü illər üzrə Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə dövlət proqramları nəticəsində bu günə kimi 5000-dən artıq gəncimiz dünyanın ən nüfuzlu ali məktəblərində təhsil alıb. Ölkə rəhbəri tərəfindən 2011-ci il dekabrın 19-da Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun yaradılması gəncliyin inkişafında mühüm rol oynadı. Bu günə qədər fond tərəfindən 4545-dən artıq layihə maliyyələşdirilib. 2018-ci ildən isə həmin qurum yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb.

2013-cü il iyulun 2-də Prezident İlham Əliyev tərəfindən ölkədə ilk dəfə "Gənclər üçün Prezidentin Mükafatı" təsis edilib. Bu qərar gənclərə dəstək verilməsi yönündə mühüm əhəmiyyət kəsb edib. Ölkə rəhbəri gənclərlə bağlı, onların dövlətimizin gələcəyi naminə daha böyük işlər görmələri üçün çox sayda qərarlar qəbul edib.

Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli sərəncamı ilə "Gənclərin xarici ölkənin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Dövlət proqramı çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclərin qəhrəmanlığı nəticəsində torpaqlarımız işğaldan azad edildi. Vətən müharibəsində canından keçənlərin, şəhidlik zirvəsinə ucalanların əksəriyyəti gənclərimizdir. Bu, müstəqil Azərbaycan dövlətinin inkişafında gənclərimizin xidmətini təsdiqləyən növbəti nümunənin təzahürüdür. Bugünkü müasir Azərbaycan gənclərinin dünyagörüşü daha fərqlidir, dünyada gedən proseslərə yaxşı bələddirlər, eləcə də yüksək analiz etmək qabiliyyətinə malikdirlər.

Lənkəran şəhərinin 2024-cü ildə Azərbaycanın "Gənclər paytaxtı" elan edilməsi dövlətimizin gənclərlə bağlı apardığı siyasətin ön planda olmasının sübutudur. Bununla əlaqədar ötən il müxtəlif sahələri əhatə edən 40-dan çox tədbir həyata keçirilib və bu tədbirlər 15 mindən çox gənci əhatə edib.

Azərbaycan gənclərinin inkişafına, müxtəlif sahələrdə nailiyyətlər əldə edən gənclərə Heydər Əliyev Fondu və fondun prezidenti Mehriban xanım Əliyeva tərəfindən misilsiz dəstək göstərilir. Elm, təhsil, səhiyyə, mədəniyyət, ekoloji sahələrə aid proqram və layihələr hazırlanaraq həyata keçirilir. Heydər Əliyev Fondu ölkəmizlə yanaşı, xaricdə yaşayan tanınmış, öz yüksək bilik və qabiliyyəti ilə seçilən, müvəffəqiyyət qazanmış gənc həmvətənlərimizə də böyük diqqət ayırır. Xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil edir, ölkənin yaradıcı və elmi potensialının artırılmasına böyük kömək göstərir.

*Kamilə ƏLİYEVA,*
*Bakı Dövlət Universitetinin kafedra müdiri*

## Ağacəkmə aksiyası Gənclər Gününə həsr olunub



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Bakının Müşfiqabad qəsəbəsində Azərbaycan Gəncləri Gününə həsr olunan ağacəkmə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, qurum rəsmilərinin və əməkdaşlarının, Gənclər evləri və QHT nümayəndələrinin, eyni zamanda könüllülərin iştirakı ilə keçirilən aksiya çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə aksiyasının keçirilməsində məqsəd yaşıllıq sahələrinin artırılmasını təşviq etmək, ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmini və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir.

## *Muxtar BABAYEV:* "Ötən il ölkə ərazisində 8 milyondan çox ağac əkilib"

**"Bugünkü agacəkmə aksiyaları 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunub. Biz bu gün səhər saatlarında Abşeron rayonunun Müşfiqabad qəsəbəsində geniş ərazidə ağacəkmə aksiyası təşkil etmişik.**

Bu ekoloji aksiyaya Gənclər və İdman Nazirliyi, gənclər təşkilatları da qoşulmuşdu. İndi isə Qubadayıq. Bu rayonda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində 2024-cü ildə təkcə icra orqanları tərəfindən 20 mindən çox ağac əkilib. Bütün ölkə ərazisində isə ötən il 8 milyondan çox ağac əkilib".

AZƏRTAC xəbər verir ki, bu barədə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Qubada ağacəkmə aksiyası zamanı məlumat verib.

Nazir bildirib ki, ictimaiyyət nümayəndələri ağacəkmə aksiyasında fəal iştirak edirlər. Aksiyalar çərçivəsində əkilən ağacların becərilməsinə də xüsusi diqqət yetirilir.

## Qubada Gənc Etnoqrafların I Respublika Forumu keçiriləcək

**Quba şəhərində Gənc Etnoqrafların I Respublika Forumu keçiriləcək.**
**AZƏRTAC xəbər verir ki, "İcma, mədəniyyət və elmi əməkdaşlıq" mövzusunda forum bu il iyunun 5-6-da təşkil olunacaq.**

Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin təşkilatçılığı ilə keçirilən forumun əsas məqsədi yerli icmaların milli-mədəni və mənəvi irsini tanıtmaq, mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, gənc etnoqrafların elmi-tədqiqat yaradıcılıqlarında stimullaşdırıcı imkanlar yaratmaqdır.

Forum çərçivəsində incəsənət nümayəndələrinin (peşəkar və həvəskar rəssam, qrafik dizayner, heykəltaraş və s.) yerli icmaların mədəni və mənəvi irsinə həsr olunmuş incəsənət nümunələri (rəsm əsəri, poster, heykəltaraşlıq və s.) də nümayiş olunacaq.

### Uğur formulu

## "Biz müharibə uşaqları böyüyüb Azərbaycanın mübariz gəncləri olduq"

### Keçmiş məcburi köçkün Günel Həsənovanın uğur yolu



**O, ucsuz-bucaqsız xarabalıqlar içərisində son ümid istinadgahı kimi ucalan yarıuçuq məscidin minarəsinə qalxaraq dünyaya göz açdığı doğma şəhərinin viranə halına baxarkən bir andaca ürəyində baş qaldıran qarışıq duyğuların əsirinə çevrilmişdi. Gah talan edilmiş yurdunun kədərinə bürünmüş, gah da onilliklərdən sonra vətənlə görüşün sevinc hisslərindən doğan göz yaşlarının gilələnərək bir-birinin ardınca torpağa qovuşmaq üçün can atmasını seyr etmişdi...**
**Bu uca məqamda - Ağdam Cümə Məscidinin minarəsində əl açıb Tanrıya dualar etmiş, "mən qayıtdım, doğma vətən", - deyə hıçqırıqlara boğulmuşdu...**
**Bu müqəddəs ünvanda Vətənin ətirli havasını sinəsinə çəkdikcə qəribə rahatlıq, xoşbəxtlik hiss etmiş, bir neçə dəqiqə əvvələ qədər gözlərinin qarşısında sadəcə daş qalaqlarından ibarət olan Ağdam sanki dirçəlmiş, əvvəlki bəxtiyar diyara çevrilmişdi...**
**O an ona elə gəlmişdi ki, nə ev-eşikləri dağıdılıb, nə el-obası yurdundan pərən-pərən düşüb, nə də məcburi köçkünlük həyatı yaşayıb. O özü də elə 27 ilin o üzündəki kiçik qızcığazdır və qardaşı ilə birlikdə həmişəki kimi Ağdamda evlərinin yerləşdiyi Füzuli küçəsində qaçdı-tutdu oynayır, gülüş səsləri aləmi başına götürür...**

### Arzular gerçək olanda...

"Vətən müharibəsi bitəndən az sonra bir ictimai təşəbbüs çərçivəsində əsgərlərimizə sovqat aparmaq üçün Ağdama yollandım. İllərdən sonra doğma şəhərimi dağıdılmış halda görəndə elə sarsıldım ki, xeyli müddət özümə gələ bilmədim. Düzdür, əvvəldən bilirdim ki, məni Ağdamda hansı ürəkdağlayan mənzərə gözləyir. Hətta özümü buna hazırlamışdım da... Amma gözlə görmək, bu vandallığa şahidlik etmək tamam başqa hissdir. İndiyə qədər də həmin an yaşadıqlarımı ifadə etməyə çətinlik çəkirəm. Qəzəb, nisgil, həsrət, sevinc, qayıdış xoşbəxtliyi... elə bil hamısını bir anda yaşadım... Sadəcə məni toxtadan yenidən Ağdama dönməyimiz, bundan sonra bu torpaqda əbədi var olacağımızla bağlı fikirlər idi..."

"Uğur formulu" rubrikamızın budəfəki qonağı "Balakhani Operating Company LTD" şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini, Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının İdarə Heyətinin üzvü Günel Həsənovadır. Cəmi 7 yaşı olarkən müharibənin qorxulu üzü ilə tanış olan və doğulduğu yurddan didərgin düşən Günel Həsənovanın da həyat yolu bütün keçmiş məcburi köçkün uşaqlarında olduğu kimi, çətinliklərlə müşayiət olunub. Amma hələ uşaq yaşlarından qarşısına qoyduğu hədəflərə nail olmaq üçün nümayiş etdirdiyi səbir, dözüm, iradə və mübarizə əzmi ilə qarşısına qoyduğu bütün arzularını gerçəyə çevirməyə müvəffəq olub. Təhsil, karyera pillələrində uğurla ucalmağı bacaran Günel Həsənova deyir ki, özü üçün müəyyənləşdirdiyi ən böyük hədəfi layiqli vətəndaş olaraq xalqına xidmət etməkdən ibarətdir.

### İllərin sınağı

1986-cı il dekabrın 16-da Ağdamda dünyaya göz açan Günel Həsənovanın ata tərəfi Naxçıvandan, ana tərəfi isə Cənubi Azərbaycanın Təbriz və Ərdəbil şəhərlərindən Ağdama köç edən ailədən olub. Babası Yusif Əliyev uzun müddət Ağdamda cənubi azərbaycanlılarla bağlı bir qurumun sədri işləyib. Mətləb adlı atasını erkən yaşda itirən Günel Həsənova tibb bacısı işləyən anası Bətul xanımın və özündən böyük qardaşı Qalibin himayəsində böyüyüb. Ağdamda ömrünün cəmi 7 ilini keçirsə də, Günel xanım danışır ki, orada bu gün də gözlərinin önündən kino lenti kimi ötən gözəl uşaqlıq illəri keçib:

- Müharibə dövrü də heç zaman xatirimdən çıxmır. Qardaşımla birgə həmişə küçəmizdə oyun oynayardıq. O zamanların birində qon-



şuların danışığından eşitdik ki, ermənilər Qarqarçay tərəfdən hücum edib şəhərə girmək istəyirlər. Bir gün isə başımızın üstündən mərmilərin keçdiyini gördük. O qədər qorxduq ki...

Vəziyyət getdikcə təhlükəli hal aldığı üçün qadın və uşaqları şəhərdən çıxarmağa başlamışdılar. Dayımgil ilk öncə nənəm və məni Gəncədə yaşayan xalamgilə göndərdilər. Anam tibb işçisi olduğuna görə könüllü olaraq Ağdamda qalmışdı. Eyni zamanda dayılarım, xalam oğlanları düşmənlə vuruşurdular...

İşğaldan sonra bir müddət Gəncədə xalamgildə qaldıq, sonra isə özümüzə daimi bir ev alaraq yaşamağa başladıq.

Anam (O, 1993-cü ildən bu günədək Gəncədə "N" saylı hərbi qospitalda tibb işçisi kimi çalışır) qardaşımla məni çox çətinliklərlə böyütdü. Yemədi yedizdirdi, geyinmədi geyindirdi ki, biz korluq çəkməyək. Onun qarşısındakı ən böyük iş bizə yaxşı təhsil vermək idi. Qardaşım illərdir Azərbaycan Silahlı Qüvvələrində xidmət edir. Qazidir, 5 rayonumuzun işğaldan azad edilməsində iştirak edib, buna görə medallarla təltif olunub. Hazırda hərbidə xidmətdədir. Belə bir vətənpərvər ailənin övladı olaraq böyümüşəm.

Birinci sinfə Gəncədə o vaxt 9 illik 2 nömrəli internat məktəbinə (indi 2 nömrəli riyaziyyat, ingilis dili təmayüllü məktəb) getdim. Amma həmin internat məktəbinin yataqxanasında keçmiş məcburi köçkünlər məskunlaşdığı üçün normal məktəb kimi fəaliyyət göstərirdi. Demək olar ki, bütün fənlə-



rə olan sevgimi mənə başda Almaz Rəfibəyli olmaqla həmin məktəbin dəyərli müəllimləri aşılayıblar. 10-11-ci sinifləri isə Nadir Hüseynov adına orta məktəbdə oxumuşam.

Sonra Türkiyənin Anadolu Universitetində Biznesin idarə edilməsi bölümünə qəbul olaraq təhsil almağa başladım. Bu bölüm çoxşaxəli olduğu üçün marağım olan bir çox sahədə də çalışa biləcəkdim. Tələbəlik həyatımda müəyyən maddi çətinliklərim var idi. Ona görə də çalışırdım ki, həm oxuyum, həm də işləyib qazanım, ailəmə çox yük olmayım. Müəyyən tərcümələr edirdim, piar işləri görürdüm.

### Özünəinamın gücü

- 2003-2006-cı illər ərzində Tovuzda fəaliyyət göstərən "SİMURQ" TV kanalında regional müxbir kimi fəaliyyət göstərməyə başladım. 2009-cu ilə kimi isə Gəncənin "Kəpəz" kanalında xəbər aparıcısı olaraq çalışmışam və ilk dəfə olaraq həmin kanalda canlı efirə mən çıxmışam. 2012-ci ildən isə Dünya Bankının Azərbaycan nümayəndəliyində peşə standartlarının hazırlanması prosesində kommunikasiya mütəxəssisi kimi fəaliyyət göstərdim. O dövrdə daha perspektivli olması üçün ölkədə fəaliyyət göstərən 4-5 mindən artıq şirkəti bu layihəyə cəlb etdim. Apardığım qarşılıqlı əməkdaşlıq layihəmizə böyük təkan verdi.

Müharibə keçmiş məcburi köçkünlərin həyatından çox şeyləri aldı, xüsusilə də uşaqların. Uşaqlığımızı yaşaya bilmədik. Aclıqla, yoxluqla savaşan, qan-qadanı yaxından hiss edən müharibə uşaqları yaş baxımından yox, mənəvi baxımdan




daha tez böyüyürlər. Mən də həmin tez böyüyən uşaqlardan biri oldum. Amma o travmalara, nələrisə yaşaya bilməməyimizə, hansısa yoxluqlara görə - həm öz, həm də ətrafımda tanıdığım xeyli sayda məcburi köçkün həyatı yaşamış gənclərin adına deyirəm ki, biz içimizdəki o məsumiyyəti, o sevgini itirmədik. Bəzən müharibə insanları daha da qəddar edir, amma çox sevinirəm ki, bizim içimizdə müharibə qəddarlıq toxumunu əkmədi. Daha çox mübarizə, əzm, iradə, səbir toxumunu əkdi. Bu missiya ilə yaşadıq, mübarizə hissləri ilə özümüzü böyütdük.

Bu gün də ətrafımda çadırlarda, vaqonlarda böyümüş və müxtəlif sahələrdə çalışan keçmiş məcburi köçkün gənclər var. Onlar hərəsi öz sahələrində ən öndə gedənlərdəndirlər. Buna görə hər zaman qürurla deyirəm ki, biz müharibə uşaqları böyüyüb Azərbaycanın mübariz gəncləri olduq. Bütün sahələrdə vətənimizin mənafeyi üçün səylə çalışdıq. Bu sahədə Azərbaycanın qalibiyyətlərində zərrə də olsa, payımız oldu.

Məqsədim var ki, Amerikaya gedib sırf media və kommunikasiya istiqamətində akademik təhsilimi davam etdirim. Sonra isə ölkəmə qayıdıb bilik və təcrübəmi burada həyata keçirim, xüsusilə doğulduğum Ağdam rayonunda. Ümumiyyətlə, bilik, bacarıq və təcrübələrimi hər zaman gənclərlə bölüşməyi özümə mənəvi borc bilirəm. Müharibə uşağı olaraq vaxtilə yaşadığım çətinlikləri indiki gənclərin yaşamasını istəmirəm.

Bu, həyatın dolanbac yollarından keçərək uğur zirvəsinə ucalan ağdamlı keçmiş məcburi köçkün Günel Həsənovanın ömür yoluna qısa baxış idi. Taleyini özü seçməsə də, cəmi 7 yaşındaykən doğma yurdundan didərgin düşməyin ağrı-acılı hisslərini yaşasa da, qarşısına çıxan çətin sədlərdən əzmlə aşaraq uğur hekayəsini özü yazmağı bacarmışdı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# 2 Fevral Azərbaycan Gəncləri Günüdür

# Bölgələrdə Gənclər Günü qeyd edilmişdir

## Naxçıvan



Yanvarın 31-i "Gənclər həftəsi" proqramına uyğun olaraq Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində mükafatlandırma mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, Gənclər və İdman, Mədəniyyət nazirliklərinin birgə təşkil etdiyi tədbir 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət himni səsləndirilib.

Muxtar respublika gənclər və idman nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Məcid Seyidov Ümummilli Lider Heydər Əliyev tərəfindən təsis edilmiş Gənclər Gününün önəmindən bəhs edib, dahi şəxsiyyətin Azərbaycan gəncliyinə verdiyi mühüm töhfələrdən danışıb. Prezident İlham Əliyevin liderliyində uğurla davam etdirilən dövlət gənclər siyasətinin nəticəsi kimi qazanılmış uğurlardan, gənc nəsil nümayəndələrinə göstərilən qayğıdan, gələcək perspektivlərdən söz açan Məcid Seyidov bildirib ki, Naxçıvan gəncləri də bu siyasətdən faydalanır və dövlət dəstəyi ilə yeni-yeni uğurlar əldə edirlər.

Nazir müavini ötən il gənclərlə iş sahəsində görülən işlər və qazanılan uğurlardan da bəhs edib. Qeyd olunub ki, nazirlik tərəfindən muxtariyyətin 100-cü ildönümü, COP29, "Yaşıl dünya naminə həmrəylik ili", gənclərin şəxsi və intellektual inkişafı, yaradıcılıq potensialının yüksəldilməsi, vətənpərvərlik tərbiyəsi və digər aidiyyəti istiqamətlərlə bağlı 196 tədbir təşkil olunub. Bir çox Naxçıvan gənci ölkə üzrə qrant müsabiqələrinin qalibi olmaqla, muxtar respublikada uğurlu layihələr icra edib, nazirliyin dəstəyi ilə könüllülər ölkəmizdə təşkil olunan düşərgələrdə, eləcə də xaricdə keçirilən mübadilə proqramlarında iştirak etməklə yeni təcrübələr qazanıblar. Naxçıvan idmançıları dünya, Avropa, ölkə və beynəlxalq səviyyəli yarışlarda 72-si qızıl, 71-i gümüş, 58-i bürünc medal olmaqla, ümumilikdə, 201 medal qazanıblar.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əməkdaşı Anar Babayev və Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov gənclərin inkişafı istiqamətində atılan mühüm addımlardan, geniş islahatlardan, dövlət proqramlarının uğurlu icrasından danışıblar. Prezident İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasına gətirən tarixi zəfərlərimizdə böyük rolu olduğu vurğulanıb, Vətənimizin gələcək uğur yolunda gənclərin mütərəqqi və innovativ ideyalarının vacib əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

Çıxış edənlər gəncləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Fəal gənc Ceyran Talıbova gənclik mühiti, eyni zamanda bu sahəyə göstərilən dəstək barədə fikirlərini bölüşüb, gənclərə göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib.

Tədbirdə muxtar respublika gənclərinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Muxtar respublikada uğurlu fəaliyyəti ilə fərqlənən bir qrup gənc müxtəlif nominasiyalar üzrə təltif olunub.

Tədbir Naxçıvan Dövlət Filarmoniyasının Estrada orkestrinin təqdimatında konsert proqramı ilə yekunlaşıb.

## Şuşa



Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə Qarabağ Regional Təhsil İdarəsinin müdiri, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən müəssisə rəhbərləri və gənc müəllimlər iştirak ediblər.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün də uğurla davam etdirilən gənclər siyasətindən bəhs edib. Bildirib ki, müəllimlərin işə qəbulunda, təhsil müəssisələrində müvafiq vəzifələrə təyinatda innovativ və müasir düşüncəli gənclərə üstünlük verilməsi, gənclərə stimullaşdırıcı tədbirlərin tətbiq edilməsi gənclər siyasətinin bariz nümunəsidir. O, həmçinin gənclərin təhsildə rolu və bu gün işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərmənin önəmindən və məsuliyyətindən də danışıb.

Daha sonra gənc təhsil işçiləri öz təbriklərini tədbir iştirakçıları ilə bölüşüblər. Şagirdlər tərəfindən müxtəlif ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

Gənclər siyasətinin həyata keçirilməsində səmərəli və aktiv fəaliyyətinə görə bir qrup müəllim və təhsil işçisi təltif olunub.

*AZƏRTAC*

## Şirvan



Şirvan Şəhər İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Şirvan Gənclər evində 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı tədbir keçirilib.

Tədbirdə Şirvan ŞİH-in başçısı İlqar Abbasov, YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, Şirvan-Salyan RGİİ-nin rəisi Aydın Yusifov, icra başçısının müavinləri, fəal gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılan abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri düzülüb.

Tədbiri giriş sözü ilə açan Şirvan Gənclər evinin direktoru Əfqan Həsənov dövlətin gənclər siyasəti, 2 Fevral - Azərbaycan Gəncləri Gününün yaradılması, tarixi və əhəmiyyəti barədə məlumat verib. ŞİH-in başçısı İ.Abbasov Azərbaycan Gəncləri Günü münasibətilə gəncləri təbrik edib, onlara sağlam gələcək, firavan həyat, işlərində uğurlar və nailiyyətlər arzulayıb. Müstəqil Azərbaycan gəncliyinin keçdiyi tarixi inkişaf yolundan bəhs edərək Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və bu gün uğurla davam etdirilən dövlət gənclər siyasətinin Azərbaycanda gənc nəslin mənəviyyatca zəngin, vətənpərvərlik ruhunda tərbiyəsi, gənclərin hərtərəfli inkişafı və ölkə həyatında fəal iştirakı üçün mühüm zəmin yaratdığını qeyd edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ölkə gənclərinə göstərilən yüksək diqqət və qayğıdan danışaraq, bu sahədə qəbul edilən fərman və sərəncamların, dövlət proqramlarının əhəmiyyətini vurğulayıb.

Çıxış edən YAP Şirvan şəhər təşkilatının sədri Z.Qəhrəmanov isə qeyd edib ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində dolğun fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. O, dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqənin cəmiyyətin avanqard qüvvəsinə çevrildiyini də diqqətə çatdırıb.

Tədbirdən sonra şəhər gənclərinin rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

## Masallı

Masallı RİH-də Gənclər Günü ilə əlaqədar bir qrup fəal gənclə görüş keçirilmişdir.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov çıxış edərək bildirib ki, Gənclər Günü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır: "Məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. Ulu Öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. 1996-cı il fevralın 2-də məhz Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə gənclərin ilk forumu keçirilmişdir".

Natiq daha sonra deyib ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişir. Bugünkü Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elmin, təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclərə olan diqqəti və qayğını dərin ehtiram hissi ilə xatırlayır. Bu gün Azərbaycan gənclərinin cəmiyyətimizin fəal hissəsi olduğunu deyən A.Əhmədov qeyd edib ki, biz haqlı olaraq gənclərimizlə fəxr edirik: "Azərbaycan Ordusunun tərkibi əsasən gənclərdən ibarətdir. Vətən müharibəsi iştirakçılarının əksəriyyəti gənclər idi".

Tədbirin sonunda bir qrup fəal gənc fəxri fərmanla təltif edildi.

## Biləsuvar



Biləsuvar Rayon İcra Hakimiyyətinin, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Biləsuvar rayonu üzrə gənclər və idman sektorunun, Gənclər evinin, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin, Şirvan-Salyan Regional Təhsil İdarəsinin Biləsuvar rayonu üzrə Təhsil sektorunun, GİKM-nin Biləsuvar nümayəndəliyinin birgə təşkilatçılığı ilə Gənclər Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə rayon rəhbərliyinin, hüquq-mühafizə orqanları, eləcə də idarə, müəssisə və təşkilatların nümayəndələri, Vətən müharibəsi iştirakçıları, qazilər və rayonun fəal gəncləri iştirak ediblər. İştirakçılar əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə təzə tər-çiçəklər düzüblər. Biləsuvar Gənclər Evində keçirilən tədbirdə Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Biləsuvar rayonu üzrə gənclər və idman sektorunun müdiri Azad Quliyev çıxış edərək gəncləri bayram münasibətilə təbrik edib, dövlətin gənclər siyasətindən söz açıb. Sonra rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov bildirib ki, ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə uğurlu mərhələdədir. Prezident İlham Əliyev tərəfindən qəbul edilən dövlət proqramları gənclərin dinamik inkişafı, ictimai-siyasi fəallığı istiqamətində mühüm addımlardır. Faiq Qürbətov bu yolda gəncləri daha da fəal olmağa, ölkəmizin inkişafına böyük töhfələr verməyə çağırıb.

Tədbirin sonunda müxtəlif sahələr üzrə fəallıq göstərmiş bir qrup gənc fəxri fərmanlarla təltif olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Tərtər




Tərtərdə 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının və Qarabağ Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, YAP rayon təşkilatının sədri Eldar Əsədov, Qarabağ Regional Gənclər və İdman İdarəsində İnzibati təşkilat sektorunun müdiri Anar Şahbazov, qazilər, təhsil, səhiyyə, mədəniyyət sahəsində çalışan, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən gənclər, könüllülər və gənc idmançılar iştirak ediblər.

Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarətlə başlayan tədbir rayon icra hakimiyyətinin akt zalında davam edib. Çıxış edən RİH-in başçısı M.Məmmədov gəncləri bayram münasibətilə təbrik edib, onların ölkənin ictimai-siyasi həyatındakı rolundan, mədəniyyət, təhsil, idman və digər sahələrdə əldə etdikləri uğurlardan danışıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü elan edilib. Gənclərimiz Ümummilli Lider Heydər Əliyevin onlara ən böyük hədiyyəsi olan bu günün təsis edilməsinin 28 illiyini qalib ölkənin məğrur və qürurlu vətəndaşları kimi böyük ruh yüksəkliyi ilə qeyd edirlər.

Natiq gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin ölkə gəncliyinin inkişafında dərin izlər buraxdığını, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, qanunlar və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına müsbət təsir göstərdiyini deyib. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında, məhz onun hakimiyyəti dövründə yetişən vətənpərvər gənclərin 30 ildən sonra xalqımıza qələbə sevincini yaşatdığını, öz qanları-canları bahasına yeni tarix yazdıqlarını bildirib.

YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, Qarabağ Regional Gənclər və İdman İdarəsində İnzibati təşkilat sektorunun müdiri Anar Şahbazov da gəncləri təbrik edərək, onlara xoş arzularını çatdırıblar. Bildirilib ki, rayonda Gənclər Mərkəzinin, Uşaq-Gənclər Şahmat Məktəbinin, süni örtüklü idman meydançalarının tikilib istifadəyə verilməsi, park və istirahət guşələrinin yaradılması gənclərin asudə vaxtlarının səmərəli təşkilinə, sağlam, hərtərəfli inkişaf etmələrinə xidmət edir.

Sonra söz gənclərə verilib. Azad Qaraqoyunlu kənd tam orta məktəbinin müəllimi Könül Məmmədova, rayon mərkəzi xəstəxanasının psixoloqu Təranə Əmiraslanova, könüllülərdən Əsmər Yusifli, Ləman Aslanova, Tərtər Peşə Məktəbinin tələbələri İlahə Ələkbərova, Mirzə Baxşəliyev, gənc şair Əfqan Məmmədov, Sarıcalı kənd tam orta məktəbinin müəllimi Nurlana Zeynalova, rayon mədəniyyət mərkəzinin əməkdaşı Sona Köçərli və boks üzrə dördqat zona çempionu Pünhan Verdiyev gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakından söhbət açaraq, onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup gəncə Tərtər Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı və Qarabağ Regional Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərmanlar təqdim olunub.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar gənclər arasında intellektual oyun təşkil edilib



**Fevralın 1-də Heydər Əliyev Mərkəzində "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı, "Azərlotereya" ASC-nin dəstəyi ilə 2 Fevral - Gənclər Günü münasibətilə gənclər arasında "Gənc Vətənpərvərlər: Konstitusiya və suverenlik - Nə? Harada? Nə zaman? İntellektual oyunu" keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, "Regional İnkişaf" İctimai Birliyinin bölmə rəhbəri İlkin Muradov və "Azərlotereya" ASC-nin İctimaiyyətlə əlaqələr və korporativ sosial məsuliyyət üzrə departament rəhbəri Seymur Teymurov çıxış edərək cəmiyyətin aparıcı qüvvəsi, bu günün və sabahın qurucuları olan gənclərin hərtərəfli inkişafı, biliklərinin artırılması, milli-mənəvi dəyərlərə bağlı vətənpərvər gənc kimi formalaşdırılmasının dövlətin gənclər siyasətinin başlıca məqsəd və amalı olduğunu bildiriblər. Natiqlər "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar gənclər arasında keçirilən intellektual oyunun gənclərin ölkəmizin çoxəsrlik tarixi, mədəniyyəti, tarixi hadisələri, dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğunda keçdiyi tarixi yolu barədə məlumatlarının artmasında əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıblar.

İntellektual oyunda əsas məqsədin intellektual dünya görüşünə malik gənclərin üzə çıxarılması, onların bilik və bacarıqlarının artırılması, eyni zamanda, şəhid övladları ilə Azərbaycan cəmiyyətində önəmli rolu olan digər gənclərin dostlaşması, sosiallaşması olduğu vurğulanıb. Məğrur və qüdrətli dövlətin gənclərinin harada olmalarından asılı olmayaraq daim Azərbaycanın başını uca edəcəklərinə əminlik ifadə edilib.

150-yə yaxın gəncin iştirakı ilə keçirilən intellektual oyunun ərazi bütövlüyümüz və suverenliyimizin bərpasında canından keçən qəhrəmanların övladlarının iştirakı ilə əlamətdar olduğu və bu günün onların yaddaşında xoş xatirələrlə qalacağı qeyd olunub.

Rəsmi hissədən sonra "Xəzər" İntellektual Gənclər Klubunun peşəkar komandasının təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" oyununa start verilib. Üç turdan ibarət yarışda hər birində 6 nəfər olmaqla ümumilikdə 25 komanda iştirak edib. Yarışda iştirak edən 8 komandanın üzvləri gənc şəhid övladlarından ibarət olub. Oyunun sonunda münsiflər heyəti tərəfindən komandaların cavabları sayılıb və nəticələrə əsasən "Zəngəzur" komandası I, "Parabrain" komandası II, "Torpaq" komandası isə III yerə layiq görülüb.

Sonda qalib komandalar müxtəlif mükafatlar və sertifikatlarla təltif olunub.

İlk dəfədir belə yarışda iştirak etdiyini deyən "Zəngəzur" komandasının üzvü Amal Vəliyev çətin və maraqlı suallarla dolu olan oyunun ədalətli şəkildə keçdiyini bildirib: "Rəqiblərimiz də kifayət qədər hazırlıqlı idi. Qalib olduğumuza sevinir, digər komandalara uğurlar arzulayıram. İntellektual oyunun təşkilatçılarına minnətdarlığımı bildirirəm".

# Bolqarıstanın enerji balansında Azərbaycan təbii qazının rolu artıb

**Bolqarıstanın enerji balansında Azərbaycan təbii qazının rolu artıb. "Report" xəbər verir ki, bu barədə Bolqarıstanın Enerji və Su Tənzimləmə Komissiyasının (EWRC) saytında yerləşdirilən məlumatda deyilir.**

Açıqlamada qeyd olunur ki, EWRC fevral ayında təbii qazın qiymətini bir MVt/saat üçün 84,34 lev (45 USD) səviyyəsində müəyyən edib ki, bu da yanvar göstəricisindən 3 faiz çoxdur. Qiymətə Bolqarıstan-Yunanıstan qaz kəməri (IGB) vasitəsilə tədarük edilən Azərbaycan təbii qazının bütün müqavilə həcmi daxildir.

Qeyd edək ki, Azərbaycandan Bolqarıstana qaz tədarükü TAP-a birləşdirilən Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) vasitəsilə həyata keçirilir. Azərbaycan qazının IGB vasitəsilə bu ölkəyə tədarükünə 2022-ci ilin oktyabrın 1-dən başlanılıb.








Gənclik






# COP29-un uğuru və gəncliyin inkişafında yeni perspektivlər

**Hər il olduğu kimi, "yaşıl dünya naminə həmrəylik" məfhumunu gündəlik həyatımızın bir parçasına çevirmiş 2024-cü il ərzində də Azərbaycan mürəkkəb dünya düzənində praqmatik mövqeyi ilə seçilən Prezident İlham Əliyevin liderliyi altında növbəti uğurlarına imza atmışdır.**

Ölkəmiz təkcə regionun deyil, bütün dünya tarixinin ən möhtəşəm tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) yüksək səviyyədə evsahibliyi etmişdir. COP29-un gedişində iqlim dəyişikliyi ilə yanaşı, bir çox mühüm qlobal problemlər dünya liderlərinin və ictimaiyyətinin, vətəndaş cəmiyyəti nümayəndələrinin, elm adamlarının iştirakı ilə müzakirə edilmiş və mühüm qərarlar qəbul olunmuşdur.

Dünyanın diqqətini istixana qazları emissiyası, iqlim dəyişikliyi, səhralaşma, torpaqların deqradasiyası, biomüxtəlifliyin itirilməsi, şirin su ehtiyatlarına çıxış, ərzaq təhlükəsizliyi və digər bu kimi qlobal problemlərə yönəldən COP29-un BMT üzvlərinin yekdil qərarı ilə Bakıda keçirilməsi Azərbaycanın və onun liderinin beynəlxalq nüfuzunun, ölkədə və xaricdə apardığı uğurlu siyasətinin, dövlətimizin beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul olunmasının daha bir göstəricisidir.

Azərbaycan tarixinin müasir mərhələsində ardıcıl qazanılan və həmçinin xalqımızın gücü və istedadının təzahürü olan bu kimi nailiyyətlərin kökündə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və onun layiqli davamçısı Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kurs durur. Bu çoxistiqamətli, çoxşaxəli kursun dövlətimizin gələcəyinin, inkişafının təməl daşı, müstəqilliyimizin və suverenliyimizin qorunub saxlanılmasının qarantı olan mühüm istiqamətlərindən biri də dövlət gənclər siyasətidir.

Hazırda dünyada Azərbaycana haqlı olaraq gənclər üçün böyük imkanlar yaradılan ölkə kimi baxılır. Cəmiyyət həyatının ən müxtəlif sahələrində bütün qapılar gənclərin üzünə açıqdır. Gəncliyin ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədə hərtərəfli inkişafı, onların dünya birliyinə inteqrasiya proseslərində, dünyanın diqqətini özünə toplayan mühüm beynəlxalq tədbirlərin təşkili və keçirilməsində fəal iştirakı və qeyd edilən istiqamətlərdə bütün imkanların səfərbər edilməsi dövlət siyasətinin əsas prioritetlərindəndir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə gənclərə və gəncliyə göstərdiyi dəstək əsl dövlətçilik nümunəsidir. Bu böyük şəxsiyyətin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsas ideoloji əsasıdır ki, məhz bu da gəncləri həm günün reallıqları, həm də gələcəyin çağırışları ətrafında səfərbər edir.

Ümummilli Liderin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı il fevralın 2-də onun təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumunun keçirilməsi, 1997-ci ildən başlayaraq hər il fevral ayının 2-sinin Azərbaycan Gəncləri Günü kimi qeyd edilməsi, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu, eləcə də 2003-cü ildən sonra müvafiq qa-



nunvericiliyin təkmilləşdirilməsi, gənclərin inkişafına və rifahına xidmət edən ardıcıl dövlət proqramları, yaradılan müvafiq fondlar, təhsil və tərəqqi imkanlarının genişləndirilməsi gənclərə göstərilən diqqət və qayğının nümunəsidir.

Azərbaycanın gənc nəsli öz dövlətinə sədaqətli olduğu kimi, müstəqil və suveren dövlətimiz və müqəddəs xalqımız da öz gəncliyinə güvənir və arxalanır. Bu mənada Prezident İlham Əliyevin gənclərə ünvanlanmış sözləri böyük anlam daşıyır: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Konstitusiya əsaslarının, milli dövlətçiliyin, müstəqilliyin və suverenliyin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün və qloballaşan dünyada informasiya mübarizəsi kimi ölüm-dirim savaşında milli maraqların ardıcıl və etibarlı qorunması yüksək hazırlıqlı, intellektual səviyyəli, xarici dilləri bilən, elmi biliklərə yiyələnmiş gənc kadrların hazırlığından, onların vətənpərvərliyindən, aparıcı qüvvə ola bilmək qabiliyyətlərindən çox dərəcədə asılıdır.

Bütün bunlar COP29-a hazırlıq dövründə və tədbirin gedişində özünü bariz şəkildə göstərmiş, Azərbaycan gəncliyi ona olan böyük etimadı şərəflə doğrultmuşdur. Ölkəmiz kimi onun gənc intellektual qüvvələri də çiyinlərini tədbirdə müzakirəyə çıxarılan məsələlərin ağır yükünün altına verərək, bütün dünyaya böyük bir məsuliyyətin öhdəsindən gəlmək bacarığı nümayiş etdirə bildilər.

Azərbaycanın COP29-a doğru gedilən yoldakı fəaliyyətinə, "yaşıl dünya" naminə görülmüş işlərə, atılmış addımlara nəzər salarkən BMT səviyyəsində keçirilmiş mühüm beynəlxalq tədbirə uğurlu evsahibliyi etməsinin təsadüfi olmadığı qənaətinə gəlmək heç də çətin deyildir. Prezident İlham Əliyevin hakimiyyəti dövründə apardığı uzaqgörən siyasəti nəticəsində ölkəmiz təkcə karbohidrogen və ənənəvi enerji ixracatçısı kimi deyil, həm də "yaşıl enerji" (külək, günəş, dəniz, geotermal və s.) istehsalında, ekoloji dayanıqlılığın təmin olunmasında və iqlim dəyişikliyi ilə mübarizə sahəsində dünyanın aparıcı dövlətlərdən birinə çevrilmişdir.

Hesab edirəm ki, Azərbaycanın müvafiq istiqamətlərdə əldə etdiyi beynəlxalq nüfuz Prezident İlham Əliyevin dövlətin sosial-iqtisadi inkişafında, xüsusən enerji sektorundakı çevik strategiyasının, alternativ enerji mənbələrinə keçid sahəsində qəbul etdiyi düşünülmüş qərarların, Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" və "sıfır emissiya" zonasına çevrilmə planlarının, rəsmi strukturlar, Heydər Əliyev Fondu və IDEA kimi ictimai sektor nümayəndələri tərəfindən həyata keçirilmiş ekoloji layihələrin, eləcə də qlobal proseslərə aktiv və yaradıcı müdaxilənin, iqlim dəyişikliyindən ən çox zərər çəkən ölkələrə göstərilən dəstəyin məntiqi nəticəsidir.

Əlamətdar faktdır ki, COP29 təkcə iqlim problemlərinin müzakirəsi üçün bir platforma olmaqla kifayətlənməmiş, həm də Azərbaycanın dünyaya açıq, dinamik və innovativ rifah ölkəsi olduğunu bir daha nümayiş etdirmişdir. Bu gün dövlətimizin bədxahları, saxta "demokratlar" həzm edə bilmirlər ki, Bakıya gəlmiş 76 min xarici ölkə vətəndaşı, onların və KİV-lərin vasitəsi ilə isə bütün dünya COP29-un gedişində xalqımızın yüksək mədəniyyətinə, dini, milli, irqi, gender tolerantlığı və insanpərvərliklə yoğrulmuş dünyagörüşünə, qonaqsevərliyinə və ədalətpərəstliyinə şahidlik etmişdir.

COP29-un gedişində beynəlxalq mütəxəssislər, dövlət və hökumət başçıları, digər rəhbər şəxslər və qlobal güclərlə yanaşı, Azərbaycan gənclərinin eyni məkan altında və ortaq zaman çərçivəsində səmərəli fikir mübadiləsi aparması, öz ideyalarını paylaşması, ən müxtəlif sahələrdə ölkəmizin iradəsini, ədalətli və konstuktiv mövqeyini, Azərbaycan həqiqətlərini ortaya qoya bilməsi də xalqımıza başucalığı gətirən mühüm amillərdən olmuşdur. Azərbaycanda gənclərin ictimai və beynəlxalq proseslərdə fəal iştirakını təmin edən layihələr bu tədbirdə də özünü göstərmişdir.

COP29-un ən mühüm məqamlarından biri gənclərin proseslərə həm təşkilatçı, həm könüllü, həm də iştirakçı kimi fəal şəkildə cəlb olunması hesab edilə bilər. Bir gənc olaraq COP29-un "mavi və yaşıl zonaları"nda keçirilmiş çoxsaylı tədbirlərə qatılmağımı təkcə maraqlı bir təcrübə deyil, həm də gələcəyə baxışımı yenidən formalaşdıran mühüm bir mərhələ hesab edirəm. COP29 onun işində ən müxtəlif sahələrdə iştirak etmiş gənclərin dünyagörüşlərində möhtəşəm, dərin və silinməz izlər buraxmışdır.

***Əsmər HÜSEYNOVA,***
***Bakı Dövlət Universitetinin Botanika və bitki fiziologiyası kafedrasının müəllimi***

# 2 Fevral - Gənclər Gününə həsr olunmuş "Könüllü Təşkilatlarının Dayanıqlı İnkişaf Forumu" keçirilib




**2 Fevral - Azərbaycan Gəncləri Günü ilə əlaqədar "Könüllü Təşkilatlarının Dayanıqlı İnkişaf Forumu" keçirilib. Azərbaycan Könüllü Təşkilatları İttifaqının məlumatında bildirilib ki, forum Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə gerçəkləşib.**

200-dən çox Azərbaycan könüllüsünü bir araya gətirən forumun əsas məqsədi ittifaq tərəfindən üzv təşkilatların fəaliyyətinin artırılması, dayanıqlı inkişafının təmin edilməsi, təşkilatlar arasında effektiv əlaqələrin qurulması, təcrübə mübadiləsinin təşviqi və kollektiv layihələri həyata keçirmək olub.

Forumun rəsmi açılış hissəsində ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Forumda Azərbaycanın ictimai-siyasi xadimi, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Asif Əsgərov, Azərbaycan Respublikasının Gənclər Fondunun İcraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev və AKTİ-yə üzv təşkilatların rəhbərləri, media nümayəndələri, bir sıra rəsmi qonaqlar və könüllülər iştirak ediblər.

Çıxış edən rəsmilər 2 Fevral - Gənclər Gününün Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə təsis edilməsi və bu günün Azərbaycan gəncliyinə verilən yüksək önəmin göstəricisi olduğunu vurğulayıblar. Qeyd edilib ki, könüllülük fəaliyyəti gənclərin şəxsi və peşəkar inkişafına töhfə verərək, eyni zamanda cəmiyyətə xidmətin mühüm bir formasıdır. Bildirilib ki, forum könüllü təşkilatlarının bir araya gəlməsi və gənclərin ideya mübadiləsi aparması üçün mühüm platformadır.

Forumda Azərbaycan könüllüsü, "Miqrasiya Könüllüsü" İctimai Birliyinin sədri Şəbnəm İbrahimli və Azərbaycan Könüllüsü, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İnformasiya Texnologiyaları şöbəsinin aparıcı mütəxəssisi Anar Əhmədli öz uğur hekayələrini paylaşaraq, könüllülük fəaliyyətlərinin şəxsi və peşəkar inkişafda necə böyük əhəmiyyət daşıdığını vurğulayıblar. Daha sonra forumda gənc regional nümayəndələr və bir qrup Azərbaycan könüllüsü səmərəli fəaliyyətinə görə mükafatlandırılıb. Tədbirin rəsmi hissəsi yekunlaşdıqdan sonra istedadlı Azərbaycan könüllülərinin ifasında musiqili bədii proqram dinlənilib.

Forum çərçivəsində "Könüllülük hərəkatında yeni perspektivlər və dayanıqlı inkişaf" adlı panel sessiya təşkil edilib. AKTİ-nin sədri Vüqar Əliyevin moderatorluğu ilə keçirilən paneldə spikerlər - Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun aparıcı məsləhətçisi, AKTİ-nin İdarə heyətinin üzvü Emiliya Bayramova, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Baş direktoru Azər Əliyev və "Regional İnkişaf" İctimai Birliyinin Layihələr və Könüllülərlə iş şöbəsinin müdiri Adilə Əliyeva çıxış ediblər. Onlar "Könüllülükdə dayanıqlı inkişaf və beynəlxalq təmsilçilik", "Regionlarda gənclər üçün karyera imkanları" və "Region könüllülük hərakatında mövcud problemlər və həlli yolları" mövzularında fikirlərini bölüşüblər.

# Nicatın həyat eşqinin yaradıcılıq alovu heç vaxt sönməyəcək

**İstedad dolub-daşan çaylar və sellər kimidir. Onun qarşısını heç kim ala bilmir. Necə olursa-olsun, nə zaman olursa-olsun, gec-tez mütləq kükrəyib daşır və üzə çıxıb özünü göstərir.**

Nicat Əhmədzadə istedadlı gənclərimizdən biridir. Hələ kiçik yaşlarından incəsənət dünyasına böyük maraq göstərən Nicat hazırda Azərbaycan musiqisini dünyanın bir çox ölkəsində keçirilən festivallarda məharətlə səsləndirir. Böyük uğurlar qazanır, diplomlara layiq görülür.

1993-cü ildə Bakıda dünyaya göz açan Nicat 15 yaşına qədər tay-tuşları kimi yaşayıb, təhsil alıb. Həyatının qayğısız günlərini yaşayıb. 2008-ci ildən isə Nicatın gözlərində xəstəlik yaranıb, görmə qabiliyyəti getdikcə zəifləyib. Ölkəmizdəki müxtəlif xəstəxanalarda müalicə olunsa da, şəfa tapa bilməyib. Getdikcə gözləri işığını itirməyə başlayıb.

Nə qədər çətin olsa da, valideynləri - Məhiyyədin müəllim və Vəfa xanım ümidlərini üzməyiblər. Günlərin birində övladlarının xəstəliyinin sağalacağına, gözlərinin işığının qayıdacağına ümid ediblər. 2008-ci ildə onlar övladlarını Rusiya Federasiyasının Ufa şəhərinə, dünyaca məşhur olan həkimin yanına aparıblar. Nicatı müayinə edən həkim əməliyyatdan sonra valideynlərinə şad xəbər verərək onun görəcəyini bildirib. Əməliyyat otağından çıxanda da eyni sözləri təkrar edib, onlara gözaydınlığı verib. Amma əməliyyatın üstündən xeyli zaman keçsə də, həkimin dedikləri özünü doğrultmayıb. Nicatın gözlərinə işıq gəlməyib.



Buna baxmayaraq, özündə güc tapan Nicat işığa həsrət qaldığını ürəyinə salıb dərd eləməyib. Həyatına, yaşamına, təhsilinə davam edib. Yaşıdları ilə bərabər oxuyub, ali təhsil alıb. Musiqiyə böyük maraq göstərən Nicat 2009-cu ildən gözdən əlil uşaqlar üçün 38 nömrəli musiqi məktəbinin fortepiano sinfində təhsil alıb. Bir müddət sonra isə musiqi təhsilini G.Şaroyev adına 35 saylı 11 illik musiqi məktəbində bəstəkarlıq ixtisası üzrə davam etdirib. Bəstəkarlığın sirlərinə dərindən bələd olduqca onun musiqi dünyası, mənəviyyat aləmi daha da zənginləşib.

Nicat Əhmədzadə musiqi ilə yanaşı, ulu keçmişimizə də, tariximizə də böyük maraq göstərib. Musiqiçi olmaqla yanaşı, tarixçi olmağı da arzulayıb. İstəklərinə qovuşmaq üçün 2012-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunub. 2017-ci ildə universiteti uğurla başa vurub.

Universiteti bitirəndən sonra da Nicat musiqi təhsilini davam etdirib. O, Milli Konservatoriyanın nəzdindəki Asəf Zeynallı adına musiqi kollecində oxumağa başlayıb. Musiqinin sirlərinə daha dərindən yiyələnib. Kollecdə musiqi nəzəriyyəsi ixtisası üzrə təhsil alıb. Bu sahədəki biliklərini daha da təkmilləşdirib.

Nicat Əhmədzadə 2023-cü ildə musiqi müəllimlərinin işə qəbul imtahanının test mərhələsində respublika üzrə ən yüksək nəticəni göstərib. Gənc musiqiçi hazırda gözdən əlil uşaqlar üçün 38 nömrəli musiqi məktəbində musiqi nəzəriyyəsi müəllimi işləyir. Musiqinin sirlərini böyük həvəs və sevgi ilə gənclərə öyrədir.

Nicat Əhmədzadə həm də bir-birindən gözəl musiqilər bəstələyir. Bu günə qədər 10-dan çox musiqi yazıb. Onun bəstələdiyi musiqilər dəfələrlə Qara Qarayev adına dövlət kamera orkestri tərəfindən ifa olunub. Əsərlərinin ifası zamanı Nicat solist kimi özü də səhnədə fortepianoda ifa edib. Nicat Əhmədzadə 16 noyabr 2018-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən tədbirdə fortepiana ifasına görə diploma layiq görülüb.

Gənc bəstəkar dünyanın ayrı-ayrı ölkələrində keçirilən festivallarda Azərbaycan musiqisini təbliğ edib. İfa etdiyi musiqi iştirakçılar tərəfindən böyük sevgi ilə qarşılanıb. 19-30 iyun 2019-cu ildə Almaniyada keçirilən Birinci Dünya Musiqi Festivalında Nicat uğurla çıxış edib. Buna görə ona festivalın diplomu təqdim olunub.

27 dekabr 2019-cu ildə "Gənclərə dəstək" layihəsi və "Harmoniya" Gürcü Folkloru və Klassik Musiqisinin İnkişafı Birliyi tərəfindən birgə təşkil olunmuş IX Milad-Dostluq Festivalı da Nicat Əhmədzadə üçün çox yaddaqalan olub. Nicat bu festivaldakı uğurlu çıxışına görə diplom alıb.

İldən-ilə, gündən-günə uğurlarını artıran Nicat 17 dekabr 2020-ci ildə "Billur Ulduz" Praqa Beynəlxalq Sənət Festivalının da iştirakçısı olub. Dünyanın böyük maraqla izlədiyi bu festivaldan da gənc bəstəkar uğurlu çıxışlarına görə layiq görüldüyü diplomla qayıdıb. Bundan başqa, Nicatın bəstələdiyi musiqi əsərləri 2019-cu ildə Almaniyada və Gürcüstanda keçirilən musiqi festivallarında səsləndirilib və bəyənilib.

Nicat Əhmədzadə 2022-ci ilin noyabr ayında ailə həyatı qurub. İndi oğul atasıdır.

Gözlərinin işığını itirsə də, Nicatın həyat eşqinin yaradıcılıq alovu heç vaxt sönməyəcək. Bir-birindən dəyərli, gözəl musiqilər bəstələyəcək. Böyük həvəslə yazıb-yaradan Nicat deyir ki, musiqi onun mənəvi dünyasıdır, o, bu dünyada özünü çox rahat hiss edir.

Nicat hələ gəncdir. İnanırıq ki, o, hələ bundan sonra da bir-birindən gözəl əsərlər bəstələyəcək, Azərbaycan musiqisini dünyada layiqincə təbliğ edəcək. Həmişə xarici ölkələrdə keçirilən festivallardan diplomlarla, mükafatlarla qayıdacaq. Qazandığı uğurları ilə yaxınlarını və doğmalarını sevindirəcək, musiqi tariximizdə dərin izlər qoyanlardan biri olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycan Gənclər Günü Özbəkistanda qeyd olunub



**Gənclər Günü münasibətilə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə tədbir keçirilib.**

Tədbirdə Azərbaycanın Özbəkistandakı səfirliyinin əməkdaşları, ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, ictimaiyyətin nümayəndələri, tələbələr iştirak ediblər.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev əsası 1997-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan Gənclər Günü haqqında məlumat verib, həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin dövlətin böyük diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Səfir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlardan, dövlət başçısının gənclərə qayğısından danışıb, son illərdə onların müxtəlif vəzifələrə irəli çəkildiyini vurğulayıb. Hüseyn Quliyev cəmiyyətimizin aparıcı qüvvəsi olan gənc nəslin yüksək səviyyədə, milli dəyərlərə uyğun yetişdirilməsinin dövlətimiz üçün vacib məsələlərdən olduğunu qeyd edib.

Özbəkistan Dövlət Xoreoqrafiya Akademiyasının rektoru Şuxrat Toxtasimov Bakı Xoreoqrafiya Akademiyası ilə əməkdaşlığın yaradılması və birgə layihələr haqqında məlumat verib, bu sahədə kitabların çapı ilə bağlı təşəbbüslərdən söz açıb.

Yunus Rəcəbi adına Özbəkistan Musiqi Sənəti İnstitutunun rektoru Eldor Şermanov Azərbaycanın gənclər siyasətinin təqdirəlayiq və uğurlu olduğunu, Özbəkistanda da bu istiqamətdə dövlət tərəfindən mühüm işlərin həyata keçirildiyini qeyd edib. O, 2024-cü ilin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sərəncamı ilə ölkədə "Gənclərə və biznesə dəstək ili" elan olunduğunu diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində Mədəniyyət Mərkəzinin nəzdindəki "Azərbaycan" rəqs ansamblı və "Navbahor" Özbəkistan Dövlət Rəqs Ansamblının üzvləri, həmçinin Bakı Xoreoqrafiya Akademiyasının tələbəsi Aslanə Əliyeva xalqımızın milli rəqslərini təqdim ediblər. Özbəkistan müğənnisi Dilnoza Əkbərova, azərbaycanlı ifaçılar Vahid Əliyev və Fatimə İsgəndərova Azərbaycan və özbək mahnılarını səsləndiriblər.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## *Məzahir PƏNAHOV:* "Məntəqə daxilində insanların çəkiliş aparmaq ixtiyarı yoxdur"

**"Məntəqə daxilində çəkiliş aparan bəzi insanların etirazlarını görürük. Onlara deyirik ki, insanların məntəqə daxilində çəkiliş aparmaq ixtiyarı yoxdur. Onlar üçün biz bu şəraiti yaratmışıq".**



Trend xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın bu gün keçirilən iclasında çıxışı zamanı deyib.

"Harada yazılıb ki, insanlar məntəqələrdə çəkiliş apara bilərlər? Biz onlar üçün müəyyən şərait yaratmışıq, amma bəziləri elə davranırlar ki, bu sanki onların konstitusion hüququdur", - deyə M.Pənahov bildirib.

MSK sədri əlavə edib ki, media nümayəndələrinin də heç bir icazə almadan seçki məntəqəsinə daxil olmaq hüququ yoxdur:

"Biz onlar üçün bu şəraiti yaratmışıq. Mən bəzi görüntülərdə görürəm, məntəqənin işinə mane olurlar".

Qeyd edək ki, yanvarın 29-u saat 19:00-da Azərbaycanda bələdiyyə seçkilərində səsvermə başa çatıb. Saat 19:00-a olan məlumata əsasən, bələdiyyə seçkilərində 1874810 seçici səsvermə hüququndan istifadə edib, seçici fəallığı 31,45 faiz olub.

Bələdiyyə seçkilərində 118 seçki dairəsində 685 bələdiyyəyə 8071 üzv seçiləcək. 16092 namizədin adı seçki bülletenlərinə daxil edilib. Səs vermək hüququna malik 5961987 seçicinin adı siyahıya daxil edilib. Bələdiyyə seçkilərində MSK və dairə seçki komissiyalarında 70625 müşahidəçi akkreditasiyadan keçib. 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə fevralın 1-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın yanvarın 21-də və 30-da keçirilən iclasının protokolları təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Media mənsubları tərəfindən geniş işıqlandırılan iclasda öncə müraciətlər barədə məlumat verilib. Ardınca Komissiya üzvlərinin müzakirəsinin nəticəsi olaraq, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə də baxılıb.



### QƏRAR № 6/19

## Mərkəzi Seçki Komissiyasının 2025-ci il 21 yanvar və 30 yanvar tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 21 yanvar və 30 yanvar tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

### QƏRAR № 6/20

## 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 13 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində müşahidəçi olmuş Zamanov Həsən Fərhad oğlu 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə 82 saylı İmişli - Saatlı seçki dairəsinin 30, 31, 32 və 34 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində müşahidəçi olmuş Zamanov Həsən Fərhad oğlunun 2025-ci il 31 yanvar tarixli 13 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 82 saylı İmişli-Saatlı seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

### QƏRAR № 6/21

## 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 fevral 2025-ci il tarixli 19 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 86 saylı Ağcabədi seçki dairəsindən Avşar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Quliyev Bulud İnqilab oğlu və Tapdıqov Azər Qaçay oğlu 2025-ci il fevralın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin həmin bələdiyyəni əhatə edən seçki məntəqələrində seçki qanunvericiliyinin pozuntularına yol verildiyini iddia edərək, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 86 saylı Ağcabədi seçki dairəsindən Avşar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Quliyev Bulud İnqilab oğlu və Tapdıqov Azər Qaçay oğlunun 2025-ci il 1 fevral tarixli 19 saylı müraciətləri aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

### QƏRAR № 6/22

## 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 11 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Cəlilabad kənd seçki dairəsindən Təklə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məlikov Elməddin Əliqulu oğlu 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin 29 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Cəlilabad kənd seçki dairəsindən Təklə bələdiyyəsinin üzvlüyünə qeydə alınmış namizəd Məlikov Elməddin Əliqulu oğlunun 2025-ci il 31 yanvar tarixli 11 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

### QƏRAR № 6/23

## 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 fevral 2025-ci il tarixli 20 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Şabran rayonu Padar kənd sakini Musayev Mübariz Müştağa oğlu 2025-ci il fevralın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü 56 saylı Şabran-Xaçmaz seçki dairəsinin 53 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Şabran rayonu Padar kənd sakini Musayev Mübariz Müştağa oğlunun 2025-ci il 1 fevral tarixli 20 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 56 saylı Şabran - Xaçmaz seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

### QƏRAR № 6/24

## 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 12 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 81 saylı İmişli seçki dairəsindən Qaralar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hüseynov Rafiq Həsən oğlu və digərləri 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bir neçə seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 81 saylı İmişli seçki dairəsindən Qaralar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hüseynov Rafiq Həsən oğlu və digərlərinin 2025-ci il 31 yanvar tarixli 12 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR № 6/25

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 fevral 2025-ci il tarixli 21 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində seçici Məmmədov Əfqan Rahib oğlu 2025-ci il fevralın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü 56 saylı Şabran-Xaçmaz seçki dairəsinin 19 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində seçici Məmmədov Əfqan Rahib oğlunun 2025-ci il 1 fevral tarixli 21 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 56 saylı Şabran-Xaçmaz seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

QƏRAR № 6/26

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 14 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Sabirabad seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Zərbalıyeva Pərvanə Bəybala qızı 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü qeyd edilən bələdiyyəni əhatə edən seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Sabirabad seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Zərbalıyeva Pərvanə Bəybala qızının 2025-ci il 31 yanvar tarixli 14 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

QƏRAR № 6/27

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 9 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli-Ağcabədi seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hacıyev Nizami Kamal oğlu, Qasımov Rəşad Həbib oğlu, Qasımov Ramin Həbib oğlu və Hacıyev Faxrəddin Mərkəz oğlu 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin 50, 53 və 58 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli-Ağcabədi seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hacıyev Nizami Kamal oğlu, Qasımov Rəşad Həbib oğlu, Qasımov Ramin Həbib oğlu və Hacıyev Faxrəddin Mərkəz oğlunun 2025-ci il 31 yanvar tarixli 9 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

QƏRAR № 6/28

### 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 18 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 68 saylı Sabirabad - Şirvan seçki dairəsindən Qaragüney bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağacanov Çingiz Atamoğlan oğlu 2025-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin 21 və 22 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən Qaragüney bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ağacanov Çingiz Atamoğlan oğlunun 2025-ci il 31 yanvar tarixli 18 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*01.02.2025*

# Yaxın 5 ilin hədəfi - daha təkmil nəqliyyat infrastrukturu

## Paytaxtımız tıxaclardan xilas olacaq

### 2025-2030-cu illər üçün Dövlət proqramındakı tədbirlər belə nikbin qənaətə gəlməyə əsas verir

Bakı o şəhərlərdəndir ki, Azərbaycanın mədəni və iqtisadi potensialının çoxu, ölkə əhalisinin az qala üçdə biri burada cəmləşib. Doğrudur, belə hal dünyanın başqa şəhərlərində də var. Amma Bakının fərqi ondadır ki, yerləşdiyi Abşeron yarımadası elə də böyük ərazi deyil, vurtut 2100 kvadratkilometrdən bir az çoxdur ki, onun da xeyli hissəsi eynadlı rayona aiddir. O səbəbdən paytaxtdakı həm nəqliyyat, həm də insan tıxaclarının olması təbiidir, amma qəbul edilən deyil.



Prezident İlham Əliyevin "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət proqramı"nın təsdiq edilməsi haqqında sərəncamını nəqliyyat sarıdan bu problemin həlli istiqamətində atılmış böyük addım hesab etmək olar. Əslində, dövlət başçısı bu proqramın anonsunu yanvarın 7-də yerli telekanalların əməkdaşlarının suallarını cavablandırarkən vermişdi: "Biz nəqliyyat məsələlərini həmişə diqqət mərkəzində saxlamışıq və son 15 il ərzində Bakı şəhərində bir çox böyük layihələr icra edildi, yeni metro stansiyaları istifadəyə verildi, yol qovşaqları, tunellər, körpülər inşa edildi, yeni yollar salındı. Əgər biz bu işləri görməsəydik, bu gün, ümumiyyətlə, Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi. Amma yenə də görürük ki, növbəti böyük bir proqramın qəbul olunmasında böyük fayda olacaq. Bu məqsədlə bir müddət bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə Dövlət proqramının hazırlanmasına dair müvafiq göstərişlər vermişəm və bir neçə ay ərzində bu proqram üzərində iş aparılıb".

Proqramın məqsədi Bakı şəhərində və ətraf ərazilərdə dayanıqlı nəqliyyat sisteminin qurulması, sərnişin mobilliyinin keyfiyyətinin artırılması və yol-nəqliyyat hadisələrinin, habelə ekologiyaya dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görülməsidir. Qarşıdakı beş ildə proqramın icrası zamanı şəhərdaxili sıxlığın azaldılması, tıxac probleminin həll olunması və ictimai nəqliyyatdan istifadənin səmərəliliyinin artırılması diqqət mərkəzində olacaq. Çünki dövlət başçısının da dediyi kimi, bu istiqamətdə son illər xeyli iş görülsə də, böyük infrastruktur layihələr icra edilsə də, Bakının yolları sıxlıqdan, tıxacdan dolayı hələ də əziyyət çəkir. Bu baxımdam adıçəkilən Dövlət proqramı ictimai nəqliyyatın əhatə dairəsinin genişləndirilməsini və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini (yeni avtomobil yollarının tikintisi, müxtəlif səviyyəli yol qovşaqlarının inşası, avtobus zolaqlarının çəkilməsi) özündə ehtiva edir. Sənədə əsasən yeni yolların çəkilməsi ilə yanaşı, piyadalar üçün infrastrukturun gücləndirilməsi də nəzərdə tutulur.

Dövlət proqramını şərh edən Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyir: "Bu özünü metro sisteminin genişləndirilməsində də göstərəcək. Bu sahədə 20 ədəd sərnişin qatarının alınması və "28 May" stansiyasında "Yaşıl" və "Qırmızı" xətlərin ayrılması kimi tədbirlər də nəzərdə tutulur. Proqram infrastrukturun genişləndirilməsi ilə yanaşı tıxac və sıxlığın azaldılmasına xidmət edən keyfiyyət tədbirlərini də nəzərdə tutur. Belə ki, uzun müddət müzakirə edilən dəyişkən iş qrafikinin tətbiqi həyata keçiriləcək. Proqrama əsasən dövlət orqanlarının (qurumlarının), təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkili reallaşacaq. Bu fərqli saatlarda işə başlama və iş vaxtının bitməsi anlamına gəlir".

Dünyanın bir çox ölkəsində orta məktəblərin şagirdlərinə nəqliyyat servisi xidmət edir, başqa sözlə, şagirdlər dərsə məktəb avtobusları ilə gedib-gəlirlər. Doğrudur, bu xidmət Bakıda da var, amma çox az təhsil müəssisəsi, daha doğrusu, özəl məktəblər bundan istifadə edirlər, o da hamısı yox. Odur ki, övladlarını dərsə aparıb-gətirən valideynlərin şəxsi avtomobillərinin məktəbin qarşısında və ətraf küçələrdə yaratdığı sıxlıqla hər gün rastlaşırıq. İstər digər avtomobil sahibləri, istərsə də ictimai nəqliyyat bundan çox əziyyət çəkir. Amma belə götürəndə başqa çıxış yolu da yoxdur. Nə yaxşı ki, Dövlət proqramında bu problemin həlli də öz əksini tapıb. Proqrama əsasən yaxın gələcəkdə Bakı məktəblilərinə məktəb avtobusları xidmət edəcək. Nəqliyyat problemləri üzrə ekspert Eldəniz Cəfərovun da bu barədə fikirləri maraqlıdır: "Bakı şəhərindən kənarda, səfalı bir yerdə beynəlxalq hava limanı olan ərazidə akademik şəhərciyin yaradılması mümkündür. Qəbələdə, Lənkəranda, yaxud Gəncədə 50-100 min nəfərin təhsil aldığı və çalışdığı bir akademşəhər ola bilər. Həm tədris-təhsilə fokuslanarlar, həm ekoloji cəhətdən təmiz yerdə təhsil alarlar, həm də Bakı bir qədər yüklənmədən azad ola bilər. Burada sual ortaya çıxa bilər ki, bəs gedib orada qalıb oxuyacaqlarmı? Necə ki, müəllimlər də, tələbələr də müxtəlif bölgələrdən gəlib Bakıda işləyirlər, çalışırlar və təhsil alırlar, eyni qaydada da həmin insanlar Bakıya yox, məsələn Qəbələyə gedə bilərlər".

Proqramda Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin davamlı olaraq inkişaf etdirilməsi və həmin sistemin respublikanın digər böyük şəhərlərində tətbiqi məqsədilə tədbirlər görülməsi də nəzərdə tutulur. Bu da o deməkdir ki, yalnız Bakıda deyil, digər iri şəhərlərdə də smart nəqliyyat sistemi formalaşacaq. Bütövlükdə, Dövlət proqramı Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun sistemli və mərhələli şəkildə təkmilləşdirilməsini nəzərdə tutur.

2025-2030-cu illər üçün Dövlət proqramı ilə əlaqədar Bakı metrosunun inkişafı çərçivəsində gələcəkdə 51 yeni stansiyanın inşası və əlavə 84,3 kilometr metro xəttinin çəkilməsi planlaşdırılır. "Bakı Metropoliteni xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən, metropolitenin ümumi şəbəkəsinin 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 kilometr uzunluğunda xətlərdən ibarət olması nəzərdə tutulur.

Bu sadalananlar yaxın beş il ərzində Bakı şəhərinin nəqliyyat probleminin həlli istiqamətində görüləcək işlərin bir qismi olsa da, əsas verir ki, paytaxt sakinləri və şəhərimizə gələn qonaqlar yaxın gələcəkdə yol-nəqliyyat sarıdan ciddi problemlərlə üzləşməyəcəklər.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Bakının yollarında əhəmiyyətli dəyişikliklər olacaq

### Abşeron yarımadasının şimalında dairəvi yolların yaradılması ideyası var

"Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" Bakı şəhəri və Abşeron yarımadasında nəqliyyat infrastrukturunun yaxşılaşdırılması ilə bağlı ikinci dövlət proqramıdır. İlk Dövlət proqramı 2006-cı ildə qəbul olunmuşdu və o vaxt proqram çərçivəsində Bakıda yolların yenidən qurulması, müəyyən yol qovşaqlarının salınması, çoxlu körpü, tunel tikintisi, küçələrin genişləndirilməsi işləri icra edilmişdi".



Bu sözləri "Azərbaycan" qəzetinə nəqliyyat eksperti Ərşad Hüseynov deyib. O xatırladıb ki, həmin proqram əsasında şəhərdə kiçik avtobusları irihəcmli nəqliyyat vasitələri əvəz edib. Yeni Dövlət proqramı isə daha geniş, əhatəli sənəddir. Görülən işlərin davamı və dayanıqlı olması yaxşı haldır. Yeni proqramda üç istiqamətdə tədbirlər nəzərdə tutulur. Birincisi, nəqliyyat infrastrukturu ilə bağlı məsələlərdir. Burada müəyyən yolların yenidən tikilməsi, genişləndirilməsi, qovşaqların yaradılması və sair nəzərdə tutulur. Əsas diqqət paytaxtın şimal və şimal-qərb tərəfindən şəhərə gediş-gəlişin yaxşılaşdırılmasına yönəlib. Abşeron yarımadasının şimalında dairəvi yolların yaradılması ideyası var, bu da müsbət qarşılanmalıdır. "Sabunçu-Sulutəpə, Pirşağı-Novxanı-Saray qəsəbəsindən keçərək Bakı-Şamaxı yoluna birləşən yollar Abşeron yarımadasının yükünü xeyli azaldacaq və Şamaxı istiqamətində hərəkət üçün Bakı şəhərinə daxil olmağa ehtiyac qalmayacaq. Mərdəkandan Lökbatana getmək istəyən də şəhərə daxil olmayacaq, Sabunçudan Sulutəpə yolu ilə Lökbatana keçəcək. Layihələrdən bəziləri küçələrin təkmilləşdirilməsinə yönəlikdir. Bu layihələr çərçivəsində Ziya Bünyadov prospektinin vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması nəzərdə tutulur. Bu prospektdən Bakı dairəvi yoluna keçid verilməsi planlaşdırılır. 20 Yanvar qovşağının yaxşılaşdırılması görüləcək işlər sırasındadır", - deyə o əlavə edib.

Ekspert qeyd edib ki, Dövlət proqramında yer alan tədbirlər şəhərin yol-nəqliyyat infrastrukturunu yaxşılaşdıracaq. İkinci istiqamət ictimai nəqliyyatın və mobilliyin inkişafı ilə bağlıdır. Mobillik üçün şəraitin yaxşılaşdırılması, yeni metro stansiyalarının salınması, avtobusların sayının artırılması, Bakıətrafı qatar şəbəkəsinin genişləndirilməsi, yeni qatarlar alınması, tramvay xəttinin çəkilməsi, Mehdiabad - 28 May istiqamətində kütləvi sərnişindaşıma vasitəsi, yəni metrobusların təşkili nəzərdə tutulur. Bütün bunlar tətbiq olunsa, yollarda əhəmiyyətli dəyişikliklər olacaq.

Ə.Hüseynov vurğulayıb ki, Dövlət proqramının uğurlu olması ikinci istiqamətdə olan tədbirlərlə bağlıdır: "İctimai nəqliyyatın sürətli və dayanıqlı inkişafı üçün tədbirlər görülməsə, yeni yollar çəkilsə belə yenə tıxaclar olacaq. Bu baxımdan mobilliyin sırf alternativ ictimai nəqliyyat üzrə inkişafı vacibdir. Tramvay, metro, şəhərətrafı qatarlar, əlçatanlıq, xidmət keyfiyyətinin qaldırılması - bütün bunlar həll olunsa, uğurlu nəticələr görə biləcəyik".

Ekspert bildirib ki, üçüncü istiqamət isə təhsil müəssisələrinin mobilliyə təsiri məsələsidir. Bu məsələ ciddi araşdırılmalıdır. Söhbət hansısa universitetin, məktəbin köçürülməsindən getmir. Bakı ətrafındakı ərazilərdən şagirdlərin şəhər daxilindəki məktəblərə gətirilməsi halları çoxdur. Yaxşı olar ki, Bakı ətrafında yeni məktəblər tikilsin, mövcud məktəblərin şəraiti, pedaqoji heyətin fəaliyyəti yaxşılaşdırılsın ki, əhali oradakı məktəbi bəyənib şəhər məktəblərinə üz tutmasın. Tələbələrin mobilliyi ilə bağlı ciddi işlər görülməlidir.

Proqramda iş saatlarının dəyişdirilməsi məsələsinin də yer aldığını qeyd edən Ə.Hüseynov deyib ki, dövlət qurumlarında, tibb və digər müəssisələrdə çalışanların eyni vaxtda işə gedib qayıtdıqda yollarda vəziyyət daha dözülməz olur. Müəssisələr dəyişkən iş qrafikinə keçərsə, pik saatın vaxtı uzanar, yük daha uzun müddətə paylanar. Onda küçələr eyni vaxtda yüklənməz. Biri var on min insan yarım saat müddətində harasa gedə, bir də var ki, iki saata ünvana çata. Bundan başqa, sənəddə yollarda təhlükəsizliklə bağlı tədbirlər də yer alıb. Hər yerdə piyada keçidləri işıqlandırılmalıdır. Proqramın icrası nəticəsində kəsintisiz səki olmalı, səkilərdə maneələr aradan qaldırılmalıdır.

Ə.Hüseynov sonda qeyd edib ki, Dövlət proqramının icrası nəticəsində yaxın 5 ildə Bakıda və şəhər ətrafında mobilliklə bağlı mənzərə əhəmiyyətli dərəcədə dəyişəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Aİ-nin pərdələnmiş missiyası

### Əslində, onlar müşahidəçilər yox, hərbi kəşfiyyatçılardır



**"Avropa İttifaqı Ermənistana göndərdiyi hərbi emissarlardan ibarət missiyasının müddətini yenə iki il müddətinə uzatdı. Əslində, bu müşahidə missiyası yaradılanda Azərbaycanın icazəsi ilə tərkibi 40 nəfərdən olmaqla iki ay müddətinə nəzərdə tutulmuşdu, amma sonradan ölkəmizdən heç nə soruşulmadan birtərəfli qaydada müddəti iki il artırıldı və tərkibi də Kanadadan hərbçilər də daxil edilməklə 200 nəfərə çatdırıldı".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, onlar müşahidə missiyası adlandırılsa da, əslində, bu, NATO-nun Ermənistanda yaradılmış hərbi bazasıdır. Ona görə də qalma müddətini 2027-ci ilin 19 fevralına qədər uzadaraq 44 milyon avrodan çox büdcə ayırıblar. Onlar bu müşahidə missiyasının məqsədini yerdəki vəziyyəti müşahidə etmək və hesabat vermək, münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə vermək, mümkün olduqca Ermənistan və Azərbaycan arasında etimadın yaradılmasına dəstək vermək olduğunu bildirirlər. Amma bu, onların əsl məqsədlərindən tamamilə uzaqdır. "Məlumatda münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə vermək olduğu bildirildiyi halda hansı insanlardan söhbət getdiyi açıqlanmır. Çünki Ermənistan torpaqlarında münaqişədən təsirlənmiş ərazilər yoxdur. Münaqişədən təsirlənmiş ərazilər ancaq Azərbaycana aiddir və həmin ərazilərdəki insanların təhlükəsizliyini dövlətimiz çox yüksək səviyyədə təmin edir. Aİ-nin müşahidə missiyasının münaqişədən təsirlənən ərazilərə heç əlçatanlığı yoxdur. Onlar ancaq binokldan münaqişədən təsirlənən ərazilərdə aparılan yenidənqurma və bərpa işlərinə, yeni yaşayış məntəqələrinə və yurdlarına qayıdan keçmiş məcburi köçkünlərə baxaraq həsəd aparırlar. Burada hər hansı təhlükəsizlikdən söhbət gedə bilməz", - deyə deputat əlavə edib.

Azər Badamov qeyd edib ki, missiyanın digər məqsədinin isə Ermənistanla Azərbaycan arasında etimadın yaradılmasına dəstək verməkdən ibarət olduğu bildirilir. Təbii ki, onların bu məqsədi də gülməlidir. Axı Azərbaycan bu missiyanın mövcudluğunu qəbuledilməz hesab etdiyi halda onlar hansısa etimada dəstək verə bilərlər? Yanvarın 7-də Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə Aİ-nin missiyasının fəaliyyətinə münasibət bildirərək "Bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər" demişdi. Təbii ki, onların əsl məqsədləri deyildiyi kimi, regionda sülhün yaranmasına töhfə vermək deyil, əksinə, sülhə mane olmaqdır. Ona görə də Avropa İttifaqının bayrağı altında sərhədimizə gələrək ərazilərimizə binoklla baxış keçirir, guya qeydlər aparırlar. Əslində, onlar müşahidəçilər yox, hərbi kəşfiyyatçılardır.

Onların məqsədinin Azərbaycan ərazisində hərbi məlumatlar toplamaq və özlərinin hərbi qərargahlarına göndərməkdən ibarət olduğunu deyən A.Badamov bildirib ki, bir tərəfdən hərbi kəşfiyyat məlumatları yığırlar, digər tərəfdən də Ermənistanı silahlandırır və hərbi bazalarını qururlar: "Burda hansı sülh və etimada dəstək verməkdən söhbət gedə bilər? Sülh və etimad Azərbaycanla Ermənistan arasında ikitərəfli görüşlərlə əldə edilə bilər. Bu baxımdan bu günə qədər əldə olunmuş razılaşmalar da ikitərəfli formatda, kənar tərəflər olmadan yaranıb. Ermənistan regiona davamlı sülh və əməkdaşlığın gəlməsini istəyirsə, təxribatçı beynəlxalq missiyalardan imtina edərək konstruktivlik nümayiş etdirməlidir. Əks halda regionda sülh və əməkdaşlıq olmayacaq. Davamlı sülhün olmaması isə hər zaman yenidən müharibə ehtimalını artıracaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Heç bir qüvvə Ermənistanı "dəmir yumruğ"un zərbəsindən qoruya bilməyəcək

**İkinci Qarabağ müharibəsində kapitulyasiya aktına imza atan, antiterror tədbirləri zamanı ağ bayraq qaldıraraq xilası üçün yalvaran Ermənistan uğradıldığı biabırçı məğlubiyyətlərdən dərs almaq istəmir.**



İrəvanın Azərbaycanla yeni müharibəyə iştahlanmasının səbəbi isə Qərb havadarlarının göstərdiyi siyasi, hərbi dəstəkdir. Cənubi Qafqazda geopolitik maraqları olan müstəmləkəçi Fransanın başçılığı ilə Ermənistan sürətlə silahlandırılır. Bu silahlar isə onlara ya tamamilə pulsuz şəkildə, ya da kredit formasında verilir ki, həmin kreditlər də bir müddətdən sonra silinir.

İrəvanın hazırda nümayiş etdirdiyi destruktiv davranışların arxasında da bu səbəblər yatır. Bölgədə dayanıqlı sülh üçün Azərbaycana qarşı ərazi iddiaları əks olunan konstitusiyasını dəyişmək, ATƏT-in tarixə qovuşmuş Minsk qrupunun de-yure ləğvi üçün ölkəmizlə birgə müraciət etmək əvəzinə Ermənistan silahlanmağa üstünlük verir. Avropa İttifaqının (Aİ) qondarma müşahidə missiyasının müddətinin daha iki il uzadılması, hərbiləşdirilməsi də bu çirkin niyyətə xidmət edir. Burada məqsəd Ermənistandan plasdarm kimi istifadə etməklə bölgədə Aİ-nin hərbi amil olaraq mövcudluğuna şərait yaratmaq, bölgədə yeni münaqişə ocağını alovlandırmaqdır. Ancaq Azərbaycan bu missiyanın varlığına heç bir lüzum olmadığını qətiyyətlə bildirib.

Ötən il aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünün hərbi komponentlər ehtiva etməsi də Cənubi Qafqazla bağlı müharibə planlarının cızıldığını ortaya qoyur.

### Silahlar Ermənistana hədiyyə olunub

"Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir". Bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev Ermənistanın sürətlə silahlandırılması məsələsinin ümumilikdə bölgəni təhlükəyə sürüklədiyini söylədi.

Yeri gəlmişkən vurğulayaq ki, Ermənistanın pulsuz şəkildə silahlandırılması hələ Vətən müharibəsinə qədərki dövr ərzində də həyata keçirilib. Ölkəsinin uzun illər Azərbaycanla münaqişə fonunda xarici qüvvələr tərəfindən pulsuz silahlandırılmasını mətbuata açıqlamasında Ermənistanın baş naziri Nikol Paşinyan da açıq şəkildə etiraf edib. Onun sözlərinə görə, Ermənistanın silah arsenalının əhəmiyyətli hissəsi əvvəllər heç bir ödəniş edilmədən, faktiki olaraq hədiyyə kimi əldə olunub.

Elə bu hərbi dəstəyə görə də Ermənistan onilliklər boyu sülh danışıqlarından yayınıb, torpaqlarımızın işğalını davam etdirib. Ancaq nə arxalandığı Qərb, nə aldığı silahlar, nə də qurduğu sədlər Ermənistanı "dəmir yumruğ"un qəzəbindən qoruya bilmədi. Biabırçı məğlubiyyətə uğrayan Ermənistan ordusu on bir mindən çox fərarisi olan utancverici ad qazandı. Həmçinin işğalçıya və təcavüzkara dəstək verən ölkələr Ermənistanı meydanda tək qoydular, ona heç bir kömək edə bilmədilər.

Ermənistan yenidən Azərbaycanla müharibəyə başlasa, eyni ssenari təkrar olunacaq, işğalçı və təcavüzkar ölkə məğlubiyyət anında arxalandığı güclərin heç birini yanında görməyəcək. Çünki Azərbaycan buna qətiyyən imkan verməyəcək.

### Azərbaycan gedən proseslərə müşahidəçi qalmayacaq

Yuxarıda sözügedən müsahibəsində dövlətimizin başçısı İlham Əliyev məhz bu məqama xüsusi vurğu etmişdi: "Eyni zamanda bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq Azərbaycan bu imkanları verməyəcək".

Faşizm siyasəti üzərində qurulmuş qondarma dövlət Ermənistan hazırda revanşizm eyforiyasından çıxa bilmir və Azərbaycanla silahlanma yarışı aparır. Yəni sözün əsl mənasında hazırda Ermənistan odla oynamaqla məşğuldur. Azərbaycan isə İrəvanın təhlükəli addımlarına sadəcə müşahidəçi qalmayacaq.

2020-ci ildə müasir döyüş üsulu ilə düşməni döyüş meydanında darmadağın edərək adını dünya hərb tarixinə yazdıran Azərbaycan Ordusu ötən dövrdə daha da inkişaf edərək gücünə güc qatıb və milli maraqlarımızı təhdid edən istənilən gücləri məhv etməyə qadirdir. Buna görə də Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Yoxsa sonra hər şey gec olacaq...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bəzi beynəlxalq təşkilatlar Qərbin əlaltısına çevriliblər

### Çirkin niyyətlərini reallaşdıra bilməyən dövlətlər AŞPA-dan təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar

**Avropa Şurası Parlament Assambleyasının, eləcə də Aİ-nin beynəlxalq təşkilat adı ilə maskalanaraq Qərb dövlətlərinin sifarişlərini birbaşa yerinə yetirən qondarma qurum olduqları məlumdur.**



Bu qurumlara üzv olan müstəqil dövlətlərə birbaşa təsir və təzyiq edə bilməyən bəzi Qərb dövlətləri öz çirkin niyyətlərini AŞPA-nın və Aİ-nin "güc"ündən istifadə etməklə həyata keçirmək istəyirlər. Təzə olan budur ki, bəzi Qərb dövlətlərinin həyasızlığı o həddə çatıb ki, əvvəllər üstüörtülü, gizlin etdiklərini indi dünyanın gözü qarşısında açıq-aşkar edirlər. İşin pis tərəfi də odur ki, bütün bu eybəcərliklər "demokratiya", "insan haqları" adı altında həyata keçirilir.

Heç kimə sirr deyil ki, uzun müddətdir Qərb dairələri öz qlobal, geopolitik maraqlarını təmin etmək məqsədi ilə Gürcüstanda qanuni hakimiyyəti devirib maliyyələşdirdikləri "Qərbyönümlü" müxalif qüvvələri hakimiyyətə gətirməyə çalışırlar. Belə görünür ki, istəklərinə nail ola bilməyən Qərb dairələri rəsmi Tbilisiyə qarşı "hücum"u AŞPA-da davam etdirmək niyyətinə düşüblər. Bir neçə gün əvvəl İsveç parlamentinin deputatı Borjana Oberq Gürcüstan nümayəndə heyətinin etimadnaməsinin tanınmaması barədə AŞPA-da məsələ qaldırmışdı. İsveçli xanım deputat "fikrini" belə izah etmişdir: "Gürcüstan parlamenti birpartiyalı parlamentdir - yalnız "Gürcü arzusu" ilə . İvanişvili rejimi Gürcüstanda demokratik nizamı məhv edir. Ona görə də mən Avropa Xalq Partiyası adından sizə müraciət edirəm ki, onların səlahiyyətlərini dayandırın". Beş ölkədən nümayəndə heyətinin 30-dan çox üzvü məsələni dəstəkləyib.

Məsələyə münasibət bildirən "Gürcü Arzusu" partiyasının üzvü Tea Tsulukiani mətbuata verdiyi açıqlamasında bildirib ki "Gürcüstan hakimiyyətinin əleyhdarları gürcü nümayəndə heyətinin etimadnaməsinin AŞPA-da ümumiyyətlə, tanınmamasını istəyirdilər. Qurum isə etimadnamələri tanıyıb, lakin müəyyən şərtlərlə. Bunlardan biri də yeni parlament seçkilərinin keçirilməsi olub. Bütün qeyd olunanları nəzərə alaraq, biz, Gürcüstan parlamentinin nümayəndə heyətinin üzvləri Strasburq və Tbilisidə müzakirələr apardıq. "Gürcü Arzusu" komandasının ümumi qərarı ilə, səlahiyyətlərimizin təsdiq olunmasına baxmayaraq, bu gündən etibarən Parlament Assambleyasında işi dayandırırıq". Tsulukiani həmçinin qeyd edib ki, Gürcüstan nümayəndə heyəti ölkəyə və xalqa qarşı şantaj dayandırıldıqdan sonra Avropa Şurası Parlament Assambleyasında fəaliyyətini bərpa edəcək. O əlavə edib ki, nümayəndə heyətinin etimadnaməsi ilə bağlı qeyd-şərtlər seçicilərin əksəriyyətinə və "Gürcü Arzusu" ictimaiyyətinə xəyanət etməyə bərabər olardı: "Gürcüstan təbii ki, bir dövlət kimi Avropa Şurasının üzvü olaraq qalır. Ancaq bizim parlament nümayəndə heyətimizin üzvləri Parlament Assambleyasında iştirakını yalnız o zaman bərpa edəcəklər ki, gürcü dövlətinə və xalqına qarşı ədalətsiz münasibət dəyişəcək, şantajlara son qoyulacaq, rəsmi və qeyri-rəsmi bütün qərar qəbul edənlər, onların arxasında duran qüvvələr yaxşı anlayacaqlar ki, bu cür təzyiqlər Gürcüstanı və onun əhalisinin seçdiyi hökuməti heç bir anti-gürcü addım atmağa məcbur etməyəcək".

Qeyd edək ki, ötən ilin yanvarından AŞPA "insan hüquq"larının vəziyyətinə istinad edilərək Azərbaycan nümayəndə heyətinin mandatını da 1 il müddətinə dondurmuşdu. Məlum məsələdir ki, AŞPA-nın Azərbaycana qarşı qəbul etdiyi qərarının, qeyd olunduğu kimi, "insan hüquq"ları ilə heç bir əlaqəsi yox idi. Son dövrlər dünyanın geopolitik mənzərəsində baş verən olaylar göstərir ki, əslində, belə təşkilatları insan hüquqları maraqlandırmır. Böyük dövlətlər öz qlobal maraqları naminə hansısa dövlətə təzyiq etmək istəyəndə "insan hüququ", "demokratiya" amili önə çıxır. Əsl həqiqət budur ki, Avropa Şurası və onun Parlament Assambleyası artıq neçə ildir ki Azərbaycana qarşı qərəzli və ikili standartlara əsaslanan siyasət yürüdür. Qarabağ zəfərindən sonra isə bu siyasət daha riyakar və ikiüzlü xarakter alıb. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasını həzm edə bilməyən Qərb dövlətləri, xüsusilə Fransa Qarabağ zəfərindən sonra Azərbaycana təzyiq etmək məqsədilə riyakar siyasətini maliyyələşdirdiyi beynəlxlaq təşkilatlar vasitəsilə yürütməyə çalışır. Azərbaycana qarşı irəli sürülən iradlar və ittihamların kökündə tək bir məsələ durur - müstəqil siyasət yeridən dövlətlərin hədəfə alınması. Azərbaycan nümayəndə heyəti belə bir şəraitdə AŞPA-da azərbaycanofobiya və islamofobiya mühiti fonunda əməkdaşlığı davam etdirməyi məqsədəuyğun hesab etməyərək təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlmişdi.

Azərbaycan nümayəndə heyəti bu il AŞPA-nın sessiyasında iştirakdan imtina etdi. 2025-ci il sessiyasında iştirak etməyən deputat qrupunun rəhbəri Səməd Seyidov mətbuata açıqlamasında Strasburqa getməmələrində təəccüblü bir şey olmadığını deyib: "Biz bir il əvvəl oranı tərk edərkən mövqeyimizi açıq şəkildə ifadə etmişik ki, bizə qarşı qərəz, böhtan kampaniyası dayandırılmalıdır. 2025-ci il sessiyası başlayıb, bu günə qədər də bizə qarşı münasibətdə müsbət dəyişiklik olmadı. Ona görə də mövqeyimiz dəyişməz olaraq qaldı".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Rəsmi Paris istədiyinə nail olmayacaq

### Fransa nə qədər cəhdlər etsə də, müstəmləkəçilik siyasətini yürüdə bilməyəcək

**Yüz illərdir ki, sərhədlərindən minlərlə kilometr uzaqda yerləşən ölkələrdə müstəmləkə siyasəti yürüdən Fransa bu gün özü yaratdığı problemlərin mənqənəsindədir. Müstəmləkəçilik zülmündən cana doymuş xalqlar artıq rəsmi Parisin əsarəti altında yaşamaq istəmədiklərini daha sərt şəkildə və qətiyyətlə bəyan edirlər.**

Emmanuel Makron rejiminin problemi təkcə müstəmləkə ölkələrindən eşidilən etirazlar, iğtişaşlar deyil. Rəsmi Paris ölkədəki sosial-iqtisadi problemlərin həllinin də öhdəsindən gələ bilmir. Təəssüf ki, Emmanuel Makron hökuməti daxildəki problemlərin həllini axtarmaqdansa, onlardan yaxa qurtarmağa cəhd edir. İctimaiyyətin diqqətini ölkənin əsas problemlərindən yayındırmaq niyyətilə daha çox xarici siyasətlə diqqətləri çəkməyə çalışır. Emmanuel Makron hökuməti bir əli ilə Yeni Kaledoniyada, Afrikada, Fransa Polineziyasında, Mayotda, Korsikada və başqa müstəmləkə altında saxladığı ölkələrdə azadlıq tələb edən xalqların mübarizəsini boğmağa, onları yenə də əsarəti altında saxlamağa çalışır, bir əli ilə isə Cənubi Qafqazda suyu bulandırmağa, sülhün bərqərar olmasının, möhkəmləndirilməsinin qarşısını almağa can atır.

Özünü Ermənistanın havadarı, dostu kimi göstərməyə çalışan Emmanuel Makron hökuməti, əslində, ən böyük pisliyi bu ölkəyə edir. Otuz ilə yaxın Azərbaycanın iyirmi faiz ərazisini işğal altında saxladığı dövrdə də Ermənistanın havadarları çox oldu. Bir sıra erməniпərəst dövlətlər, beynəlxalq təşkilatlar Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində Ermənistanın işğalının uzanması üçün əllərindən gələni etdilər. Sülh missiyasını yerinə yetirmək adı altında, əslində, Ermənistana şərait yaradırdılar ki, silahlı qüvvələrinin mövqeyini Qarabağda, Şərqi Zəngəzururda möhkəmlətsin, alınmaz hesab etdikləri istehkamlarını qursun. Ermənistan silahlı qüvvələri həmin müddətdə təxribatlar törətdilər, nəinki Azərbaycan Ordusunun mövqelərini, hətta cəbhədən uzaq olan dinc sakinlərimizin yaşayış yerlərini də iriçaplı silahlardan intensiz olaraq atəşə tutdular. Nəticədə atəşkəs dövründə də Azərbaycanın həm hərbçiləri, həm də mülki şəxsləri şəhid oldular. Fransa kimi demokratiyadan, hüquqdan, ədalətdən danışan dövlətlər və bir sıra beynəlxalq təşkilatlar isə Ermənistanın bu cinayətkar əməllərini "görmədilər".

2020-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin təxribatı səbəbindən başlayan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu öz şücaətini, peşəkarlığını göstərdi. 44 gün ərzində işğalçıları məğlub edərək Qarabağı və Şərqi Zəngəzuru azad etdi. Dövlətimizin başçısı İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində diqqətə çatdırdığı kimi, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. "Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq Azərbaycan bu imkanları verməyəcək".

Fransa, Hindistan kimi ölkələr silah-sursat verməklə Ermənistanı astanasında olduğu sülh danışıqlarından uzaqlaşdırmağa, yaxın qonşusu olan Azərbaycanla yenidən münaqişəyə, müharibəyə sövq etməyə səy göstərirlər. Ancaq Ermənistan yenidən Cənubi Qafqazı münaqişə ocağına çevirməyə cəhd etsə, onun alovlarında yanan elə özü olacaq.

Fransa hökuməti riyakar, qarayaxma əməllərindən əl çəkmir. Yanvarın 29-da Senatda müzakirələr zamanı Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə qondarma müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd göstərdi. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransa Senatında səsləndirilən iddialara dair şərhində bildirdiyi kimi, bu, Fransanın Yeni Kaledoniyanın yerli əhalisinin tələblərinə qarşı hərəkətsizliyini ört-basdır etmək cəhdidir: "Məhz Fransa hər zaman regional məsələlərə qarışaraq, Azərbaycanın sülh və sabitliyi bərpa etmək istiqamətində apardığı prosesi pozmağa çalışıb".

Xarici İşlər Nazirliyinin mətbuat katibi diqqətə çatdırdı ki, Bakı Təşəbbüs Qrupu bir QHT kimi Fransanın müstəmləkə siyasətini və dənizaşırı ərazilərdəki problemlərini ictimaiyyətə çatdırmağı hədəfləyir, bu cür qrupların işini gözdən salmaq cəhdləri dekolonizasiya prosesini sarsıdır: "Yalnız keçən il güc tətbiqi nəticəsində azı 14 nəfərin həlak olduğu və bir çox insanın yaralandığı Yeni Kaledoniyanın yerli əhalisinə qarşı repressiya siyasətinə son qoymaq əvəzinə Azərbaycana qarşı şantaj Fransanın xarici siyasət strategiyasının nə qədər faydasız olduğunu nümayiş etdirir".

Görünən odur ki, Emmanuel Makron hökuməti yarıtmaz daxili və xarici siyasəti səbəbindən yaratdığı problemlərdən çıxış yollarını başqalarını günahlandırmaqda, şər-böhtan atmaqda görür. Müstəmləkəçilik dövrünün bitdiyini, xalqların öz ölkələrində əsarət altında yaşamaq istəmədiklərini, müstəmləkəçilərdən qurtulmaq üçün mübarizə apardıqlarını bilə-bilə müxtəlif bəhanələrlə həqiqəti ört-basdır etməyə çalışır. Lakin davam edən proseslər göstərir ki, rəsmi Parisin cəhdləri gözlədiyi, umduğu nəticələri verməyəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycanın doqquzuncu beynəlxalq aeroportu Laçında tikilir

## Prezident İlham ƏLİYEV: "Biz hava nəqliyyatı üzrə beynəlxalq mərkəzə çevriləcəyik"



**Ölkəmizin çoxşaxəli nəqliyyat infrastrukturunun ayrılmaz bir hissəsi də hava yollarıdır. Əgər təkcə Heydər Əliyev Beynəlxalq Hava Limanının keçən il yeddi milyondan çox sərnişin daşıyaraq rekorda imza atdığını və bu rəqəmin daha da artacağının gözlənildiyini xatırlatsaq, şərhə heç ehtiyac qalmaz.**

Təsadüfi deyil ki, Prezident İlham Əliyev bir neçə gün əvvəl nəqliyyat məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirədə hava nəqliyyatında ölkəmizin əldə etdiyi nailiyyətlər və perspektivlər üzərində də dayandı: "Son 20 il ərzində Azərbaycanda səkkiz beynəlxalq hava limanı inşa edilib. Onların dördü var idi, amma vəziyyəti qənaətbəxş hesab edilmirdi. Bakı, Naxçıvan, Gəncə və Lənkəran hava limanları yenidən quruldu. Lənkəran hava limanı faktiki olaraq istifadə edilmirdi. Amma Bakı, Naxçıvan, Gəncə istifadə olunurdu. Bu dörd hava limanının həm zolaqları, həm terminal kompleksləri ən müasir standartlara cavab verir. Bununla bərabər, dörd yeni hava limanı inşa edilmişdir - Qəbələ, Zaqatala, Füzuli və Zəngilan. Doqquzuncu beynəlxalq hava limanı bu il Laçında istifadəyə veriləcək".

Bütün bu hava limanları istənilən ağırlıqda yük və sərnişin təyyarələrini qəbul etməyə qadirdir. Uçuş-enmə zolağı minimum üç kilometr səviyyəsindədir.

Heydər Əliyev Beynəlxalq Aeroportu (Heydər Əliyev adına Beynəlxalq Hava Limanı, yaxud qısaca Bakı Hava Limanı) paytaxtımızdan 20 kilometr şimal-şərqdə, Binə qəsəbəsində yerləşir. 2004-cü il martın 10-dan Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyır. Bu, Qafqazda ən böyük beynəlxalq hava limanıdır. Eyni zamanda Azərbaycanın və Qafqazın ən işlək aeroportudur.

Prezident İlham Əliyevə təklif verilib ki, yeni terminal kompleksi Heydər Əliyev Beynəlxalq Hava Limanında inşa edilsin . "Mən də öz dəstəyimi verdim. İndi bu yeni terminal kompleksinin layihəsi və texniki-iqtisadi əsaslandırılması hazırlanır. Artıq buna start verilmişdir və bu da gələcək sərnişinlərin sayını qəbul etmək üçün bizə imkan yaradacaq. Yəni ki, biz o cümlədən hava nəqliyyatı üzrə beynəlxalq mərkəzə çevriləcəyik. Nəzərə alsaq ki, hazırda Ələtdə böyük yük terminalı inşa edilir, onun yük qəbuletmə imkanları 1 milyon ton olacaq. Yəni təsəvvür etmək çətin deyil ki, biz nəqliyyatın sadəcə olaraq bu istiqaməti üzrə hansı işləri görürük", - deyə dövlət başçısı sözügedən müşavirədə məsələyə münasibətini bildirib.

Təqdirəlayiq haldır ki, mövcud səkkiz aeroportun ikisi işğaldan azad edilmiş ərazilərimizdə yerləşir. 44 günlük Vətən müharibəsi zəfərlə başa çatandan az sonra Prezident İlham Əliyev Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verdi. 2021-ci il yanvarın 14-də təməlqoyma mərasimi oldu. Tikinti işləri qısa zamanda başa çatdırıldı və həmin il oktyabrın 26-da hava limanının rəsmi açılışı keçirildi. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdilər.

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini sürətləndirdi. Belə ki, hava limanı həmin ərazilərin bərpa və yenidən qurulması üçün zəruri olan yüklərin daha tez və asan daşınmasına şərait yaratdı. Eyni zamanda liman yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün geniş imkanlar açdı. Hava limanının açılması bölgədə turizmin inkişafına şərait yaradacaq. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin böyük sənaye, kənd təsərrüfatı və digər istehsal potensialını nəzərə alsaq, həmin ərazilərdə inşa olunan beynəlxalq hava limanları istehsal olunan məhsulların dünya bazarına sürətli çıxarılmasına imkan verəcək. Bütün bunlar isə regionun inkişafına böyük təkan verməklə yanaşı, investisiya cəlbediciliyini xeyli dərəcədə artıracaq.

Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləndən cəmi bir il sonra işğaldan azad edilmiş ərazilərimizdə ikinci beynəlxalq aeroport Zəngilanda işə düşdü. Onun tikintisinə 2021-ci ilin aprel ayında başlanılmışdı.

Bu hava limanının da açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdilər.

Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edə bilir.

Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verir. Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malikdir.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Daha bir hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur. Laçın Beynəlxalq Hava Limanının təməli Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2021-ci il avqustun 16-da qoyulub. Bu, Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Buradan Laçın şəhərinə məsafə 30 kilometrdən, Kəlbəcər şəhərinə 60 kilometrdən bir qədər çoxdur, Şuşa şəhərinə isə 70 kilometrə yaxındır. Yəni Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq.

Laçın aeroportunun təməlini qoyarkən Prezidentimiz bildirmişdi ki, demək çətindir bu inşaat nə qədər vaxt aparacaq: "Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Lakin bildirmək istəyirəm ki, mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən - oktyabr ayından sonra buralarda qar yağacaq. Mən bunu demək istəməzdim - yollardan istifadə çətinləşəcək. Hər halda bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil".

Bir neçə gün əvvəl nəqliyyat məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirədə isə Prezident İlham Əliyev bəyan etdi ki, ölkəmizin doqquzuncu beynəlxalq hava limanı - Laçın aeroportu bu il istifadəyə veriləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# SOCAR "Tamar" layihəsində iştirak payı alıb

## Şirkət həmçinin ilk dəfə quru sahəsində aeroqravimetrik tədqiqat işlərinə start verib

**SOCAR öz inkişaf strategiyasına uyğun olaraq, xarici ölkələrdə hasilat bazasının genişləndirilməsi strategiyasını davam etdirir.**

Bu çərçivədə 2025-ci il yanvarın 31-də SOCAR "Union Energy" şirkəti ilə İsrailin Aralıq dənizi hövzəsində ən iri qaz yataqlarından biri olan və böyük önəm daşıyan "Tamar" layihəsində effektiv olaraq 10 faiz payın alınması üzrə müqavilə imzalayıb.

Müqavilənin qüvvəyə minməsi üçün müəyyən şərtlərin yerinə yetirilməsi, o cümlədən müvafiq qaydada tənzimləyici və digər təsdiqlərin alınması tələb olunur.

Bununla SOCAR Aralıq dənizi hövzəsində apstrim sahəsində investisiya layihələrini həyata keçirməyə başlayır. SOCAR xarici ölkələrdə strateji aktivlərdə iştirak payının alınması istiqamətində bundan sonra da fəaliyyətini davam etdirəcək.

ARDNŞ-nin yaydığı daha bir məlumatda isə bildirilir ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) İngiltərənin tanınmış şirkəti "Metatek" ilə əməkdaşlıq çərçivəsində ilk dəfə quru sahəsində aeroqravimetrik tədqiqat işlərinə start verib.

Bu üsul geniş ərazilərdən qısa zamanda yüksək dəqiqliklə məlumat əldə etməyə imkan yaradır. Bu çərçivədə dünyada məşhur "LockheedMartin" şirkətinin ən son "eFTG" texnologiyası tətbiq olunacaq, həmçinin maqnetik ölçmələr və LiDAR texnologiyası vasitəsilə relyefin 3D modeli əldə ediləcək. Əldə olunan nəticələr ölkəmizin yeraltı süxurları və strukturları haqqında daha müfəssəl məlumat toplamağa, habelə neft-qaz və digər təbii sərvətlərin aşkarlanmasına imkan yaradacaq.

# Pakistanla iqtisadi əməkdaşlığın inkişafı müzakirə edilib

**Pakistanın özəlləşdirmə, İnvestisiya Şurası və kommunikasiya üzrə federal naziri ilə görüşdə müxtəlif istiqamətlər üzrə tərəfdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.**

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Pakistan İslam Respublikasının özəlləşdirmə, İnvestisiya Şurası və kommunikasiya üzrə federal naziri Abdul Alim Xanla görüşüb.

Görüşdə vurğulanıb ki, dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Pakistan münasibətləri inkişaf edir. Bu kontekstdə iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial var. Pakistanla qarşılıqlı ticarət əməkdaşlığının möhkəmləndirilməsi mühüm xarakter daşıyır. Ölkələrimiz arasında imzalanmış Preferensial Ticarət Sazişi bu sahədə işbirliyinə töhfə verəcək. Bununla yanaşı, investisiya istiqamətində əməkdaşlığın inkişafı və müxtəlif sahələrə aid birgə layihələr üçün imkanlar müzakirə olunub.

Tərəflər gündəlikdə olan əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar.

# "Məşğulluğa Dəstək Layihəsi" ilə bağlı Şabranda ictimai dinləmə olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" barədə növbəti ictimai dinləmə Şabran rayonunda təşkil olunub.**



İşaxtaran və işsiz, o cümlədən öz biznesini qurmaq istəyən şəxslərin iştirakı ilə baş tutan görüşdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi barədə məlumat verilib.

Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblərdən, proqramın gözlənilən faydalarından, layihəyə müraciət qaydalarından bəhs olunub.

Layihə çərçivəsində avadanlıqlarla təmin edilməklə kiçik bizneslərini quraraq uğurla davam etdirən şəxslərin bizneslərini genişləndirməsinə dəstək məqsədilə keçirilən "Həvəsləndirmə Mükafatı" müsabiqəsi və müsabiqədə iştirak şərtləri barədə də məlumatlar verilib.

"Məşğulluğa Dəstək Layihəsi" həssas qruplara aid şəxslərin kiçik biznesə çıxışına imkan yaradır. Artıq 20 mindən çox şəxs layihə çərçivəsində aktivlərlə təmin olunaraq istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini yaradıb.

Layihənin uğurlu icrasının nəticəsi olaraq bu ilin sonunadək həmin rəqəmin 25 minə çatdırılması planlaşdırılır.

# Cəlilabadda ilin ilk əmək yarmarkası keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin (DMA) Lənkəran-Astara Regional Məşğulluq filialı Cəlilabad şəhərində region üzrə cari ilin ilk əmək yarmarkasını keçirib.**

Cəlilabad şəhər 3 saylı tam orta məktəbin inzibati binasında təşkil olunan əmək yarmarkasında Lənkəran-Astara iqtisadi rayonunda fəaliyyət göstərən 13 idarə, müəssisə, təşkilat və fərdi sahibkar iştirak edib. Yarmarkaya qatılan 62 işsiz və işaxtaran işəgötürənlər tərəfindən təqdim edilən 70-dən çox vakansiya ilə tanış olmaq imkanı qazanıb. Vakansiyalara müraciət edən şəxslərin anket məlumatları qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlər növbəti mərhələyə dəvət olunublar.




Yarmarkada işsiz və işaxtaran şəxslərə DMA-nın aktiv məşğulluq istiqamətləri barədə məlumat verilib, müraciət etmək istəyən şəxslərlə ilkin sorğular aparılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Xarici ticarət: 176 ölkə ilə tərəfdaşlıq, 5,2 milyard dollarlıq müsbət saldo

**Dünyada baş verən siyasi qarşıdurmalar qlobal ticarətdən də yan keçmir. Xüsusilə təchizat zəncirində baş verən qırılmalar beynəlxalq ticarətə mənfi təsir göstərir. Əsas səbəb isə Qərb-Şərq blokları arasında baş verən siyasi çəkişmələr, bir-birlərinə qarşı tətbiq etdikləri iqtisadi və maliyyə sanksiyalarıdır.**



Rusiya-Ukrayna müharibəsinə iki ölkə arasında baş verən silahlı münaqişə kimi baxmamalıyıq. Konfliktdə Qərb və Şərq ölkələri də bu və ya digər formada iştirak edirlər. Rusiyanın karbohidrogen məhsullarına Qərb tərəfindən qoyulan sanksiyalardan ən çox əziyyət çəkən Avropa ölkələridir. Bu gün Avropa dünya bazarına əvvəlki həcmdə məhsul çıxara bilmir. Yaranmış fürsətdən isə Çin və Hindistan məharətlə istifadə edir. Ancaq Qərbin də əks tədbirləri yox deyil. Ən azından o səbəbə ki, onlar Çinin ən böyük ticarət tərəfdaşıdırlar. Xarici ticarət isə hər bir ölkə üçün mühüm iqtisadi alətdir. Bu alət həm xeyir, həm də ziyan işə yarayır.

Azərbaycanda bu amilə xüsusi diqqət yetirilir. Neft gəlirləri sabit olmadığı üçün ölkədə qeyri-neft-qaz sənayesinin inkişafına önəm verilir. İxracda bu sektorun payının artırılması prioritet hədəf hesab olunur. Ötən il aparılan idxal-ixrac əməliyyatlarına diqqət yetirdikdə görürük ki, bu sahədə müəyyən uğurlarımız var. Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən ilin yanvar-noyabr aylarında ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 120 ölkəyə məhsul ixrac edilmiş, 167 ölkədən müxtəlif çeşidli mallar idxal olunmuşdur.

Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış, ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla keçən ilin yanvar-noyabr aylarında xarici ticarət dövriyyəsi 42 milyard 813,7 milyon, o cümlədən ixracın dəyəri 24 milyard 042 milyon, idxalın dəyəri 18 milyard 771,7 milyon dollar olmuş, nəticədə 5 milyard 270,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Ölkəmizin xarici ticarət coğrafiyası genişdir - 176 ölkə. Lakin onların arasında bir çox ölkə var ki, onlar ənənəvi tərəfdaşlarımızdır. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 87,1 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, ABŞ, Almaniya, Avstraliya, Çexiya, Hindistan, Xorvatiya, İsrail, Gürcüstan, Bolqarıstan, Portuqaliya, Birləşmiş Krallıq, İran, Yunanıstan, Rumıniya, Belarus, İsveçrə, Qazaxıstan və Ukrayna ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə idxalda maşınların, mexanizmlərin, elektron avadanlıq və aparatların, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar, onlardan hazırlanan məmulatların, nəqliyyat vasitələrinin, mineral məhsulların, kimya sənayesi məhsullarının, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri daha çox olmuşdur.

İdxalda Çin liderlik edir. Belə ki, ölkəyə gətirilən malların 18 faizi bu ölkənin payına düşüb. Qalan yerləri Rusiya, Türkiyə, ABŞ, Avstraliya, Almaniya, İran, İtaliya, Belarus, Yaponiya, Koreya, Qazaxıstan, Türkmənistan, Ukrayna, Birləşmiş Krallıq, Fransa, Hindistan, Özbəkistan, Braziliya və Kanada tutur.

Ötən ilin yanvar-noyabr aylarında qeyri-neft-qaz məhsullarının ixracının dəyəri 3 milyard 090,6 milyon dollara çatmış və 2023-cü ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 1,9 faiz artmışdır. İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarından savayı, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstün olmuşdur.

Xarici bazara çıxarılan məhsulların tərkibinə diqqət yetirdikdə görürük ki, burada qeyri-neft-qaz sənayesi məhsullarının payı az deyil. Düzdür, hələ də neft-qaz ixracda mütləq üstünlüyünü qoruyub saxlayır. Ancaq ildən-ilə qeyri-neft-qaz məhsullarının ixracı nikbin gələcəkdən xəbər verir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Yeni nəşrlər

# Narkomaniya mövzusunda maarifləndirmə işinə böyük ehtiyac var

**Hər dəfə aldığımız kitabları vərəqləyəndə üzümüz gülür, qəlbimiz açılır. Çünki bu kitablardan yeni biliklər öyrənirik, mənəvi cəhətdən zənginləşirik. Budur, qarşımızda olduqca maraqlı "Narkotizm və narkomaniyaya qarşı cinayət - hüquqi mübarizə" adlı bir kitab, dərs vəsaiti var. Təbiidir ki, kitabın dəyəri onun əhatə etdiyi mövzu ilə insanlara, insanlığa verdiyi biliklərlə, töhfələrlə ölçülür.**

Haqqında söhbət açmaq istədiyimiz kitabın mövzusu elə adından bəllidir. Oxuculara təqdim olunan kitab bəşəriyyət üçün həmişə bəla olmuş, insanlara, insanlığa ağır zərbələr vurmuş narkomaniya haqqındadır, narkomaniya əleyhinə yazılmış dəyərli bir dərs vəsaitidir. Belə kitabların yazılması, araya-ərsəyə gəlməsi elə də asan iş deyil. Adından da məlum olduğu kimi, cəmiyyətimizin saflığı, insanların sağlamlığı üçün bu cür kitabların yazılması müəlliflərindən böyük səbir və ən başlıcası isə zəngin təcrübə, peşəkarlıq tələb edir. Kitabın müəllifləri Şöhlət Kərimov, Elşad Səlimov və Akif Eyvazov, sözün əsl mənasında, bu kitabı yazmaqla cəmiyyətdə geniş maarifləndirmə işləri aparıblar, insanlara, insanlığa böyük töhfə veriblər. Üzərlərinə düşən bu məsuliyyətli işin öhdəsindən bacarıqla gəliblər.

Həyatı yenicə anlamağa başlayan yeniyetmələr, gənclər həmişə narkomaniyaya onun nə olduğunu bilmədən qurşanırlar. Məlumatsızlıqdan kiminsə, yaxud kimlərinsə təsiri altına düşürlər. Bu addımları ilə özləri də hiss etmədən gələcək həyatlarını, bəzən isə bütün ömürlərini məhv edirlər. Belə neqativ hadisələrin baş verməsi onu göstərir ki, bu mövzuda cəmiyyətdə kifayət qədər maarifləndirmə işləri aparılmır, boşluqlar yaranır. Əgər sistemli maarifləndirmə işləri aparılsa, gənclər səhv addımlar atıb narkomaniyanın qurbanına çevrilməzlər. Düşünürük ki, "Narkotizm və narkomaniyaya qarşı cinayət - hüquqi mübarizə" kitabının yazılması cəmiyyətdə bu sahədə olan boşluqların yerini dolduracaq. Bu dəyərli kitabı oxuyan yeniyetmələr, gənclər narkomaniyanın insan həyatı üçün hansı faciəli fəsadlar törətdiyini görər və heç vaxt səhv addım atmazlar.




Kitaba ön sözü hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə yazıb. Alim kitabdakı vacib bir məsələyə toxunub: "Dərs vəsaitində diqqəti çəkən mühüm məqamlardan biri də narkomaniya ilə mübarizə aparmaq üçün verilən təkliflərdir. Bu təkliflərin həyata keçirilməsi narkomaniya ilə mübarizədə mühüm rol oynaya bilər. Hesab edirik ki, dərs vəsaitində əhatə olunan mövzular, narkomaniya ilə əlaqədar şərh olunan vacib məsələlər təkcə hüquqi təhsil alan tələbələr, magistrlər, gənc alim və tədqiqatçılar üçün deyil, ümumilikdə, ictimaiyyətin nümayəndələri üçün də maraqlı və faydalı olacaqdır".

"Narkotizm və narkomaniyaya qarşı cinayət - hüquqi mübarizə" dərs vəsaiti uzun illər Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasında çalışmış, əməkdaşların sevimlisi, xeyirxah, təvazökar, hüquqşünas alim Şamil Bayramovun əziz xatirəsinə ithaf olunub. Kitabın əhatə etdiyi mövzunun əhəmiyyətini, vacibliyini nəzərə alan Milli Aviasiya Akademiyasının Elmi-Metodik Şurası 2024-cü il 31 oktyabr tarixli iclasında onun çap edilməsini məsləhət görmüşdür.

Kitabın giriş hissəsində oxuculara narkomaniya haqqında geniş izahedici məlumatlar verilir. Dörd fəsildən ibarət olan dərs vəsaiti ümumi girişdən əlavə, 14 mövzunu əhatə edir. "Narkotizm və narkomaniyaya qarşı cinayət - hüquqi mübarizə" kitabı narkomaniyaya qarşı aparılan maarifləndirmə işinə güclü bir təkandır. İnsanlara göstərilən ən düzgün yoldur. Narkomaniya əleyhinə cəmiyyətə bir çağırışdır. İnanırıq ki, bu çağırış cavabsız qalmayacaq. Narkomaniyaya meyil göstərənlər bu çağırışı eşidəcək, insanlığa zərbə olan əməllərini dərindən götür-qoy edəcək, sağlam həyata qayıdacaqlar. Kitabın məqsədi də məhz elə budur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Ermənistanda bahalaşma bütün sahələri əhatə edib

## Yoxsulluq səviyyəsi artıb və davam edən iqtisadi tənəzzül hakimiyyətin reytinqini sıfra yaxınlaşdırıb

**Ermənistanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir.**



Hakimiyyət əleyhinə yönələn etirazların sayının artması və artıq Nikol Paşinyanın istefasının əsas tələb kimi qoyulması mövcud iqtidarın durumunu xeyli ağırlaşdırır. Əsasən qeyd olunur ki, Azərbaycanla sülh müqaviləsinin imzalanmasının yubadılması fonunda Ermənistanda ötən il iqtisadi göstəricilər yaxşıya doğru dəyişməyib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb və iqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi sıfra yaxınlaşıb.

Ölkədə cari ilin ilk ayından etibarən inflyasiyaya görə əhalinin maaşlarından pul saxlanaraq, müxtəlif fondlara və dövlətin xeyriyyə layihələri üçün nəzərdə tutulmuş büdcəsinə verilməyə başlanılıb. İndi dövlətin bir sıra qanunvericilik dəyişiklikləri səbəbindən ölkədə kəskin bahalaşma gözlənilir.

Dünən İrəvanda ictimai nəqliyyat haqlarının bahalaşmasına etiraz olaraq boykot aksiyasına başlanılıb. Bundan əvvəl yerli hökumətin qərarına əsasən, ictimai nəqliyyatda minimum gediş haqqı 100 dramdan 150 drama qaldırılıb. Gediş haqqının 100 drama endirilməsi tələbi ilə keçirilən etiraz aksiyasına Ermənistanın Ağsaqqallar Şurasının "Ana Ermənistan" fraksiyasının üzvləri, İrəvanın keçmiş meri Ayk Marutyan və "Ermənistan" fraksiyasından olan erməni millət vəkili Qarnik Danielyan da çıxıblar.

Məlumata görə, bahalaşma qərarının əleyhdarları vətəndaşları ictimai nəqliyyatda əvvəki kimi 100 dram gediş haqqı ödəməyə çağırıblar.

Ermənistanın baş naziri Nikol Paşinyan yanvarın 31-də keçirdiyi mətbuat konfransında bildirib ki, 2024-cü il üçün gəlir vergisi bəyannaməsinin təqdim edilməsi üçün son müddət 2025-ci il mayın 1-dən noyabrın 1-nə köçürülüb. "Həyat üçün ölkə" Partiyasının həmtəsisçisi, keçmiş əmək və sosial məsələlər naziri Mesrop Arakelyan deyib ki, Ermənistanda indiki formada tətbiq edilən universal bəyannamə sistemi iqtisadi inkişafa və ya vətəndaşların həyat səviyyəsinin yaxşılaşmasına olan ümidlər kontekstində faydasızdır. Ona görə də ümumi boykota getmək və bəyannamənin məcburi təqdim edilməsinin ləğvinə nail olmaq lazımdır: "Ermənistan hakimiyyəti beynəlxalq təcrübəyə istinad edir, lakin onların təbliğ etdikləri universal bəyannamə sistemi əksər ölkələrdə qəbul edilən modeldən xeyli fərqlənir. Onun sözlərinə görə, hakimiyyətin nəzərində Ermənistan vətəndaşları vergiləri gizlədə bilən potensial cinayətkarlardır. Burada sadə vətəndaşların həyatını yaxşılaşdırmaq istiqamətində nəzərə çarpan heç bir tendensiya yoxdur".

Sabiq nazir əlavə edib ki, indi bəyannamələr doldurulmamalıdır, çünki boykot edib imza toplamaqla qanunu ləğv edə bilərik: "Əgər son tarix buraxılsa, kimin doldurub, kimin doldurmadığını öyrənənə qədər bildiriş prosesi təxminən iki ay çəkəcək. Bəyannamə bildirişin alındığı tarixdən 30 gün ərzində doldurula bilər və yalnız bundan sonra onu doldurmasanız, 5 000 dram cərimə gələcək. Mən cəmiyyətin emosiyaya əsaslanmayan qərar verməsini istəyirəm. lakin əminliklə və dəqiqliklə bildirirəm ki, bu məcburi bəyannamə hamımıza qarşı yönəlib.

O, hesab edir ki, Ermənistan hakimiyyətinin elementar iqtisadi bilikləri yoxdur, əks halda belə bir addım atmazdılar. Çünki onların məqsədi daha çox vergi toplamaqdırsa, o zaman bunu belə etmək mümkün olmayacaq: "Nikol Paşinyan öz ətrafına iqtisadi bilikləri zəif olan insanları toplayıb və bu, təhqir deyil. Məsələn, mənim kimya sahəsində biliyim yoxdur, amma mən Kimya İnstitutunda işləmirəm və orada yüksək vəzifə tutmuram. 25 faizi yoxsul olan və aylıq gəliri 40 min dramdan çox olmayan 2,3 milyon insanı bir sistemdə birləşdirmək ağlabatan deyildi. Hakimiyyət çox yaxşı bilir ki, ölkəni kim talan edir. Hökumətdəkilər bu gün onlarla uğurlu əməkdaşlıq edirlər. Gedin onları ovlayın".

Arakelyan vurğulayıb ki, Ermənistanda bu qalmaqallı qanunun qəbulundan əvvəl bank sirrini əldə etmək yalnız məhkəmənin qərarı ilə mümkün idi: hətta baş prokurorun da bank sirrini əldə etmək imkanı yox idi, amma bu gün vergi idarəsinin ən aşağı vəzifəli məmuru istənilən vətəndaşın hesabından çıxarış edə bilər.

Göründüyü kimi, müharibədəki məğlubiyyətdən sonra Ermənistan özünə gələ bilmir. Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan ölkə sonu görünməyən tənəzzül dövrünü yaşayır. Əhalisinin əvvəlki maaşla yaşaması mümkün deyil. Siyasi ziddiyyətlər paralel şəkildə digər sferalardakı mövcud problemləri dərinləşdirib. Ermənistanda iqtisadiyyat faktiki olaraq iflic olub, əhalinin səfaləti isə artıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Pilotsuz taksi



**"Tesla" şirkəti bu ilin iyun ayında Texas ştatının Ostin şəhərində insan nəzarəti tələb etməyən tam avtopilot funksiyasını ödənişli xidmət kimi istifadəyə verməyi planlaşdırır.**

Şirkətin baş direktoru İlon Mask bu barədə son hesabat konfransında məlumat verib. "Tesla"nın Ostində yerləşən böyük müəssisəsi və yeni baş qərargahı ilə əlaqəli olaraq, xidmətin ilk olaraq bu şəhərdə tətbiq edilməsi planlaşdırılır.

Şirkət tam avtopilot funksiyasını bütün müştərilər üçün əlçatan etməzdən əvvəl onun orta səviyyəli sürücüdən daha təhlükəsiz olduğunu təmin etmək niyyətindədir. ABŞ-nin Nəqliyyat Təhlükəsizliyi İdarəsinin məlumatına görə, yerli sürücülər orta hesabla ümumilikdə 670 min mil (1 milyon 72 min km) qəzadan kənar məsafə qət edirlər. "Tesla"nın avtopilotunun isə insan müdaxiləsi tələb etmədən təxminən 800 km məsafə qət etdiyi bildirilir ki, bu da şirkətin texnologiyanı daha da təkmilləşdirməli olduğunu göstərir.

İ.Mask əlavə edib ki, növbəti 3 il ərzində "Tesla"nın maliyyə göstəricilərinin artmasında avtopilot funksiyasının kommersiya uğurları mühüm rol oynayacaq. O, bu artımı "ballistik trayektoriya"ya bənzədərək, gələcəkdə sürətli inkişaf gözlədiyini vurğulayıb.



# Ən böyük günəş elektrostansiyası inşa ediləcək

**"Masdar" və "Emirates Water and Electricity Company" şirkətləri dünyanın ilk irimiqyaslı layihəsinin işə salındığını elan ediblər. Özündə Günəş batareyaları ilə enerji saxlama sistemlərini birləşdirən layihə Əbu-Dabini elektrik enerjisi ilə fasiləsiz təmin etmək üçün nəzərdə tutulub.**

Layihə 5,2 giqavat gücündə günəş elektrostansiyasının və 19 giqavat-saat həcmli enerji saxlama sisteminin inşasına hədəflənib. Bu da öz növbəsində bərpa olunan enerji mənbələrindən gündəlik 1 giqavat enerji gücünü təmin etməyə imkan verəcək. İnşa ediləcək bu obyektlər 52.44 kvadratkilometrlik sahədə yerləşəcək. 10 mindən çox yeni iş yerinin yaradılmasına imkan verəcək layihə çərçivəsində ərsəyə gətiriləcək elektrostansiya həm gündüz, həm də gecə fasiləsiz şəkildə təmiz enerjini ötürməklə bərpa-olunan enerji mənbələrinin qeyri-stabillik problemlərini aradan qaldıracaq.

Qeyd etmək lazımdır ki, sözügedən layihənin dəyəri 6 milyard dollar təşkil edir. Onun 2027-ci ildə yekunlaşdırılaraq istifadəyə verilməsi nəzərdə tutulub.

# Yeni süni yağış texnologiyaları

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Milli Hidrometeorologiya Mərkəzinin məlumatına görə, BƏƏ-də yağışların süni şəkildə formalaşdırılmasına istiqamətlənmiş 2 perspektivli texnologiya test edilir.**



Test edilən texnologiyalardan biri buludların formalaşması üçün nanotexnologiyaların istifadəsinə, digəri isə təyyarələrin və ya dronların qanadlarına elektrik boşalmaları yaradan qurğuların quraşdırılmasına əsaslanır.

Məlumatda qeyd edilib ki, suyun duzsuzlaşdırılması prosesi bu perspektivli texnologiya ilə müqayisədə 25 dəfə daha baha başa gəlir. Buna görə də yağış vasitəsilə əldə edilən su bu prosesin yerini tutmalıdır.

Yaxın Şərqdə olan bir çox ölkə kimi, BƏƏ də tələbatların ödənilməsi üçün suyu duzsuzlaşdırır. Bu cür sistemlərin yaradılması olduqca baha başa gəlir. Digər alternativ variantların olmaması səbəbilə bu bahalı variantdan istifadə edilir. Lakin alternativ variant kimi yağışların süni şəkildə formalaşdırılması ideyası çıxış edə bilər. Günümüzdə bu proses havada duz reagentlərinin səpələnməsi hesabına reallaşdırılır. Bu isə öz növbəsində torpaqda duzun miqdarının artması kimi mənfi nəticələrə səbəb ola bilər. Aparılmış hesablamalara əsasən, sözügedən proses çərçivəsində duz əvəzinə nanohissəciklərdən istifadə yağıntıların formalaşması effektivliyini 3 dəfə yüksəldə bilər.

Bundan əlavə, təyyarə və ya dronların qanadlarına quraşdırılan qurğular vasitəsilə elektrik boşalmaları ilə damcıların əmələ gəlməsinin stimullaşdırılması yağıntıların yaradılmasının effektivliyini doqquz dəfə artırır. İlk belə təcrübə 2021-ci ilin yayında keçirilib və güclü yağışlara səbəb olaraq uğurlu hesab edilib. Lakin BƏƏ hələ bu texnologiyaların kütləvi tətbiqinə hazır deyil. 2024-cü ildə Dubayda güclü yağış şəhərdə hərəkəti iflic edib və burada yağış sularının axıdılması üçün kanalizasiya sistemi yoxdur.

# "iPhone SE 2025"in fotoları təqdim olunub

**"Apple" şikəti qarşıdakı aylarda növbəti "iPhone SE" smartfonunu təqdim etməyə hazırlaşır. Smartfon barədə yeni məlumatlar ortaya çıxmağa başlayıb.**

Növbəti "iPhone SE" modeli özündə müasir dizaynı birləşdirəcək. Smartfon yastı gövdə dizaynını əldə edəcək və bəzi məlumatlara əsasən, fiziki "Home" düyməsindən məhrum olacaq. Smartfonun arxa panelində isə bir ədəd kamera yerləşəcək. Bu, çox güman ki, smartfonun aşağı qiymətə satılması istiqamətində atılmış bir addımdır.

# Mikroplastiklərin damarlarda hərəkəti ilk dəfə vizual izlənilib



**İnsanlar plastik materialları istehsal etməyə başladıqdan bəri 150 ildən çox vaxt keçib və bu müddət ərzində plastik materiallar planetimizi əhatə edərək əsas çirkləndiricilərdən birinə çevrilib. Çox kiçik plastik hissəciklər su, hava, torpaq və hətta canlı orqanizmlərin bədənlərində aşkar edilib.**

İndi isə yeni bir tədqiqatda Pekin Universitetinin alimləri mikroplastik hissəciklərin siçanların beyin qan damarları boyunca hərəkətini vizual olaraq izləməyi bacarıblar. Tədqiqatın nəticələri göstərir ki, mikroplastik hissəciklərin beyində toplanması mikroskopik "avtomobil qəzası"na bənzəyir. Tədqiqat zamanı alimlər ikifotonlu mikroskopiya kimi də bilinən flüoresan vizuallaşdırma metodundan istifadə ediblər. Bu üsul onlara həzm olunmuş mikroplastik hissəcikləri real zaman ərzində daha dəqiq müşahidə etməyə imkan verib. Tədqiqatçılar laboratoriya siçanlarının kəllə sümüklərində kiçik şəffaf pəncərə yaradıb və onlara kiçikölçülü flüoresan polistirol sferalarına sahib su veriblər.

Əvvəlki tədqiqatlar insan qanında hər millilitrə təxminən 12 nanoqram mikroplastik hissəciyin olduğunu göstərdiyi üçün, tədqiqatçılar siçanlara uyğun miqdarda polistirol veriblər. Polistirol oyuncaq, qablaşdırma və məişət texnikasında geniş istifadə olunan plastik növüdür. Təxminən 3 saat sonra beyin qan damarlarında parlaq hüceyrələr görünməyə başlayıb. Tədqiqatçılar bunun immun sisteminin neyrofillər və faqositlər kimi hüceyrələrinin birləşməsi olduğunu müəyyən ediblər. Bu hüceyrələr zərərli yad obyektlərin məhv edilməsinə cavabdehdirlər.

Bəzi plastik nanohissəciklərinin beyin qabığının ətrafındakı kiçik qan damarlarının əyrilərində ilişib qaldığı güman edilir. Nəticədə bu yığıntılar tromblara bənzəyərək bir neçə gün və ya həftə ərzində beyinə qan axınını azaldır. Bu hüceyrə yığıntılarının bəziləri zamanla yoxa çıxdığı halda digərləri dörd həftə sonra da müşahidə olunur. Tədqiqatın müəllifləri xəbərdarlıq edirlər ki, hələlik bu mexanizmi birbaşa insanlara tətbiq etmək tezdir. İnsanlar və siçanlar fərqli immun, laxtalanma və ürək-damar sistemlərinə malikdirlər, buna görə də mikroplastik hissəciklərin insan beyninə necə nüfuz etdiyini və ona necə təsir etdiyini anlamaq üçün əlavə tədqiqatlara ehtiyac var.




# Dünyanın ən böyük üzən külək turbini

**Çində 20 MVt gücündə dünyanın ən güclü üzən külək turbini inşa edilib. "CRRC" şirkəti tərəfindən hazırlanan "Qihang" adlı qurğu ildə təxminən 25 min ton kömürə qənaət edəcək və karbon qazı emissiyasını 62 min ton azaldacaq.**

"Qihang" 2024-cü ilin oktyabrında Jiangsu əyalətindəki zavodda hazırlanaraq sınaq üçün Quanli limanına gətirilib. Generatorun Şandunqdakı sınaq bazasında quraşdırılması 2025-ci il yanvarın 11-də başa çatıb. Daşıma üçün isə özüyeriyən modul platformadan istifadə edilib.

Sınaq və sertifikatlaşdırma başa çatdıqdan sonra külək turbininin elektrik şəbəkəsinə qoşulması üçün açıq dənizdə quraşdırılması planlaşdırılır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Sülh müjdəli göyərçinlər

**Ağlı-qaralı göyərçinlər, tükü daralı göyərçinlər. Qədəmləri uğurlu, çöhrələri yaraşıqlı, gözləri nurlu göyərçinlər. Böyüklərin də, kiçiklərin də, elə təbiətin özünün də sevdiyi, öydüyü göyərçinlər. Uçuşları, yerişləri ilə daim insanlarla dostluğa can atan, onların sevincinə sevinc qatan göyərçinlər.**

Dünyamızın bəzəyi olan göyərçinlərin şəninə, şərəfinə, gözəlliyinə şairlər yorulmaq bilmədən qələm çalıb kitab-kitab şeirlər yazıblar, birbirindən dəyərli sözlər deyiblər. Göyərçinləri sevənlər onların özləri kimi gözəl rəsmlər çəkiblər, nəğmələr bəstələyiblər, mahnılar oxuyublar. Sanki yazılan bu sözlərdən, bu mahnılardan, bu nəğmələrdən göyərçinlər üçün gözəl bir xalı toxuyublar.

Şəhərimizdə addımımızı hara qoyuruqsa, hara atırıqsa göyərçinlərlə rastlaşırıq. Hər dəfə də görəndə düşünürük ki, sanki onlarsız dünya gözəl görünməz. Bəlkə buna görədir ki, göyərçinlər hər yerdə var, yerdə də, göydə də. Uçuşları, nəğmələri, gözəllikləri ilə insanlara sevinc gətirirlər.

Hərdən təbiətə naz da satır göyərçinlər, həmişə insanlarla ünsiyyət qurmağa can atır göyərçinlər. Nəğməsi ilə, səsi ilə başqa quşlardan seçilən göyərçinlər. Onların baxışları necə də aydındır, yerişləri necə itidir, uçuşları necə göz oxşayandır. Səmaya qalxanda sanki məharətini insanlara göstərmək üçün, asta-asta havada qanad çalır, baxanlar da onlardan zövq alır. Səmada heç yerə tələsmədən dövrə vurub dolaşırlar, kefləri kök olanda hərdən başı üstə də aşırlar. Sanki bu anlarda onlar bir-biriləri ilə yarışırlar.

Bir zamanlar müharibələri dayandırıb sülh, əmin-amanlıq quşu adını qazanan göyərçinlər. Sülhün simvoluna çevrilib minlərlə, milyonlarla insanı ölümdən, qan-qadadan qurtaran göyərçinlər. Bəzəyi, düzəyi, yerişi, uçuşu, baxışı, naxışı ilə bir-birinə bənzəməyən göyərçinlər.

Onları ürəkdən sevən insanlar həvəslə göyərçinləri yemləyirlər. Onlar da başlarını tez-tez qaldırıb ətrafa baxa-baxa, ona dən atanlara göz qoya-qoya, özünü qoruya-qoruya sürətlə yemi dimdikləyirlər. Kiçik bir təhlükə hiss edən kimi hamısı eyni vaxtda, eyni anda zərif qanadlarına güc verib göyə qalxırlar. Göy üzündə dalğavarı qövs cızıb yenə də dən səpilən yerə qonurlar. Göyərçinlərin səmada yaratdıqları bu gözəl mənzərəyə baxmaqdan doymuruq. Bu bənzərsiz mənzərəyə baxdıqca baxırıq. Nə qədər tələssək də, soyuqdan əssək də, ayaq saxlayıb bu qeyri-adi səhnəyə tamaşa edirik. Baxa-baxa, zövq ala-ala gedirik.

Oğlanlar ürəkdən, qəlbdən sevgi bəslədikləri elə göyərçin kimi bənzərsiz olan qızları da təbiətin bu gözəlinə bənzədirlər. Onları oxşayıb nəvazişlə "göyərçinim" deyirlər. Göyərçinə oxşayan gözəl qızları sevdikcə sevirlər. Təkcə sevənlər deyil, elə valideynlər də qız övladlarını əzizləyə-əzizləyə, sevinə-sevinə onlara "mənim ağ göyərçinim" söyləyirlər.

Dillərdən heç vaxt adı düşməyən göyərçinlər, həmişə qırılmaz tellərlə insanlara, yerə, göyə bağlı olan göyərçinlər! Göylərimizdən heç vaxt əskik olmayın, bizdən çox uzaqlarda uçmayın. Heç yerə getməyin, dünyamızda qaldıqca qalın. Həmişə səmamızda qanad çalın, ölüm qoxuyan silahları müharibə etmək fikrinə düşənlərin əlindən tutub alın.

Qoy gözəlliyindən doymadığımız göyərçinlər həmişə səmamızın ənginliklərində uçduqca uçsun, yerə də, göyə də gözlərindən işıq saçsın, bağlı qapıları açsın. Bizə həmişə xoş xəbərlər gətirsin, sülh müjdələri yetirsin.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Mənim sualım var

*Bakı şəhərində köhnə binaların sökülməsi yenidən geniş vüsət alıb. Bizim yaşadığımız məhlədə və yaxın digər küçələrdəki evlərin dövlət proqramı çərçivəsində söküləcəyi deyilir. İcra orqanları gəlib mənzillərdə ölçmə işləri aparıblar. Amma sakinlərə nəticə ilə bağlı heç bir məlumat verilməyib, akt tərtib olunmayıb, evlərimiz söküləndən sonra aqibətimiz necə olacaq, əmlakımızın əvəzində yeni mənzil və ya kompensasiya veriləcək - bu haqda da heç nə deyilməyib. Yaşadığımız ərazi faktiki şəhərin mərkəzidir. Bilmək istəyirik ki, bu proses necə aparılmalıdır, vətəndaşlar əmlak və mənzil hüquqlarını necə qorumalıdırlar, kompensasiyanın məbləği necə hesablanmalıdır? Xahiş edirik, bizə hüquqlarımızı izah edəsiniz.*

***Əli MƏMMƏDOV,***
***Bakı şəhəri***

Sualınıza cavab olaraq bildiririk ki, vətəndaşlara məxsus evlərin sökülməsi və onun dövlət tərəfindən alınması məsələləri Mülki Məcəllə və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanun ilə tənzimlənir. Adıçəkilən qanunun 1.1.1-ci maddəsinə əsasən, dövlət ehtiyacları üçün xüsusi mülkiyyətdə olan torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına xitam verilməsi yolu ilə mülkiyyətçidən könüllü və ya məcburi qaydada, əvəzi ödənilməklə satın alına bilər. Burada "torpaq" anlayışı evləri, binaları və qurğuları da əhatə edir. Maddənin mətnində "dövlət ehtiyacı" dedikdə nələrin nəzərdə tutulması qanunun 3-cü maddəsində göstərilmişdir. Sizin halda isə, evinizin sökülməsinin böyük ehtimalla qanunun 3.1.1-ci maddəsində göstərilən əsasla (dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin çəkilməsi və quraşdırılması) həyata keçirilməsi gözlənilir.

Beləliklə, Mülki Məcəllənin 246-249-cu maddələrinə əsasən, alınma prosesi və alınma zamanı kompensasiyanın məbləğinin müəyyən edilməsi aşağıdakı mərhələlərdən ibarətdir. Alınma haqqında qərar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilir və həmin qərar daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmalıdır. Daha sonra Nazirlər Kabineti bu barədə evin mülkiyyətçisinə yazılı bildiriş göndərməlidir. Əgər tərəflər arasında evin alqı-satqısı ilə bağlı razılıq əldə edilərsə, məhkəmə təsdiqi (qeyd: bu barədə növbəti abzasda məlumat verilcəkdir) alındıqdan sonra alqı-satqı müqaviləsi bağlanır və evi alan dövlət orqanı 90 təqvim günü ərzində evin mülkiyyətçisinə evin dəyərini tam ödəyir, evlə bağlı hüquqların dövlətə verilməsi (keçməsi) üçün öz xərcləri hesabına lazımi tədbirləri görür, satılan ev mülkiyyətçinin, onun ailəsinin yaşayış yeri olduğu halda, torpağın dəyəri mülkiyyətçiyə tam ödənildikdən sonra mülkiyyətçiyə evi boşaltmaqda və yeni yaşayış yerinə köçməkdə kömək göstərir. Qeyd olunmalıdır ki, evin alınmasından imtina hesab edilən hallarda, imtina edilmiş alınmanın obyekti olan evin ən azı 3 (üç) il ərzində alınmasına təkrar başlanıla bilməz. Alınan ev üçün kompensasiyanın məbləği evin bazar qiyməti ilə müəyyən olunur. Alınacaq evlə bağlı kompensasiyanın məbləği müəyyən edilərkən, aşağıdakı amillər nəzərə alınır:

- mülkiyyətçilərə ödəniləcək kompensasiya elə prinsipə əsaslanmalıdır ki, evlərini tərk etmələrinin və başqa yerə köçürülmələrinin tələb olunması ilə bağlı və onun nəticəsində zərər və narahatlıq çəkən bütün şəxslərin əmlakları, DOLANIŞIQ üçün vasitələri, gəlirləri, YAŞAYIŞ STANDARTLARI onların məruz qaldıqları zərər və narahatlığın baş verdiyindən sonra ağlabatan müddətdə, köçürülənədək malik olduqları şəraitdən əlverişsiz şəraitə düşməmələri baxımından bərpa edilsin;
- ödəniləcək kompensasiya qiymətləndirilərkən, mövcud inflyasiya;
- alınmanın təsirinə məruz qalan şəxsdən evə sahibliyin əldə edilməsi nəticəsində həmin şəxsin digər daşınar və ya daşınmaz əmlakına, yaxud həqiqi gəlirinə dəyən və ya dəyə biləcək zərər;
- alınma nəticəsində şəxs yaşayış, sahibkarlıq fəaliyyətinin həyata keçirdiyi və ya iş yerini dəyişməyə məcbur edilmişdirsə, belə yerdəyişmədən irəli gələn bütün xərclər və itkilər.

Dövlət ehtiyacları üçün alınan evə görə kompensasiya aşağıdakı formalarda ödənilir:

- itirilmiş yaşayış sahəsi və ya tikili ilə müqayisə ediləcək keyfiyyətə, ölçüyə və istifadə imkanına malik olan yaşayış sahəsi və ya tikili;
- kapital itkisinə görə bu fəslin müddəalarına uyğun olaraq, müəyyən edilmiş məbləğdə birdəfəlik pul ödənişi;
- yerdəyişmə nəticəsində azalmış və ya itirilmiş gəlirin təmin edilməsi və ya əvəz edilməsi üçün müəyyən müddətə ödənişlər.

Yuxarıda qeyd edildiyi kimi, alınmanın həyata keçirilməsi üçün "məhkəmə təsdiqi" prosesindən keçilməlidir. Belə ki, alınmanın təsirinə məruz qalan şəxsdən alınan evlə bağlı sahibliyin əldə edilməsi yalnız məhkəmə tərəfindən müvafiq qərar qəbul edildikdən sonra həyata keçirilə bilər. Alınan evin yerləşdiyi ərazi vahidi üzrə məhkəməyə müraciət alan orqan tərəfindən evin alınmasının, onun əldə olunması prosesinin və şəxslərə ödəniləcək kompensasiyanın növünün və məbləğinin qanunvericiliyin tələblərinə uyğun olmasının təsdiq olunması üçün edilir.

Evin alınmasına, onun üzərində sahibliyin əldə olunmasına və ya təklif olunan kompensasiyaya etiraz edən alınmanın təsirinə məruz qalan şəxs aşağıdakı əsaslardan biri və ya bir neçəsi ilə bağlı məhkəməyə ərizə verə bilər:

- evin alınmasının qanunvericiliyin tələblərinə zidd olması;
- evin alındığı layihənin həyata keçirilməsi üçün lazım olmaması;
- təklif olunan kompensasiyanın ədalətli olmaması;
- alan orqanın müvafiq səlahiyyətlərə malik olmaması;
- qanunvericiliklə müəyyən olunmuş prosedurlara riayət edilməməsi və ya düzgün və ədalətli riayət edilməməsi.

Qeyd olunmalıdır ki, ev üzərində hüquqların alınma prosedurlarını başa çatdırmaq üçün tələb olunan hər hansı hərəkətlərlə əlaqədar alınmanın təsirinə məruz qalan şəxsin üzərinə heç bir xərc, ödəmə, yaxud başqa maliyyə tələbləri qoyula və ya alına bilməz.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Bakıda III Beynəlxalq keramika duet-simpoziumu keçirilir

**Bakıda III Beynəlxalq keramika duet-simpoziumu keçirilir. Simpoziumda Azərbaycanın tanınmış keramikaçısı və heykəltaraşı Mir Teymur Məmmədov və britaniyalı keramikaçı İrina Denev iştirak edirlər.**

AZƏRTAC xəbər verir ki, fevralın 3-də heykəltaraşlar öz əsərlərini Bakıda geniş ictimaiyyətə təqdim edəcəklər.

Layihənin müəllifi Mir Teymur Məmmədovdur. İlk iki simpozium çərçivəsində Bakıya Qazaxıstan və Moldovadan keramikaçılar - Artyom Qorislavets və Valentin Rusu gəliblər. Simpoziumun əsas ideyası təcrübə mübadiləsi və ünsiyyətdir.

İrina Denev ilk dəfədir ki, Azərbaycandadır. Bakının, xüsusən də onun tarixi hissəsi olan İçərişəhərin gözəlliyi onu heyran edir. "İçərişəhər məni heyran edir. Böyük bir müasir şəhərdə özünəməxsus mədəniyyəti və həyat tərzi olan kiçik bir qala şəhərinin olması çox heyrətamizdir. Bakı sözün əsl mənasında Xəzər dənizinin ətri ilə doyub. Hər səhər İçərişəhərdəki eyvana qalxaraq Köhnə Şəhərin və Xəzər dənizinin mənzərəsini seyr edirəm.

Simpozium çox canlı keçir, biz bütün günü işləyirik. Keramika ən gözlənilməz materialdır, ona görə də sərgidə nə qədər əsərimi nümayiş etdirəcəyimi hələ dəqiq deyə bilmərəm. Üç heykəl hazırladım. Biz bişməmiş gildən hazırlanmış bir parça təqdim edə bilərik", - deyə İrina Denev vurğulayır.





Fevralın 4-də Londonda İrina Denevin fərdi sərgisi açılacaq. O, Britaniya paytaxtında yaşayır və işləyir. İrina Denev 20 ildən artıqdır ki, artefaktlar əsasında xüsusi texnikalardan istifadə edərək sənət əsərləri yaradır. Öz bədii üslubunu axtaran İrina qədim və ənənəvi əl heykəltaraşlıq üsullarını öyrənib. Onun əsərləri ağır görmə qüsurlu rəssamın şəxsi səyahətinin kövrəkliyini əks etdirir. İrina genetik xəstəlik nəticəsində sol gözündə görmə qabiliyyətini itirib, sağ gözündə isə dar və məhdud görmə sahəsi yalnız kiçik bir "pəncərə" qoyur və onun vasitəsilə hələ də dünyanın gözəlliyini görə bilir. Sənətkar vaza formasında təqdim olunan insan bədəni şəklində həssas və toxunma heykəlləri yaradır. Onun əsərlərinin boyasız səthi insan ruhunun saf mahiyyətini təcəssüm etdirən çılpaq dəri fakturasını xatırladır. Vaza insan bədənini simvolizə edir, dünyanın müqəddəs başlanğıcını, ürəyin döyündüyü canlı vücudu və damarları təcəssüm etdirir.

Gil, bir material olaraq, İrina tərəfindən ilkinliyin simvolu, dünyanın yaradılmasından bəri mövcud olan material kimi qəbul edilir. Bu, ilk və ən qədim material, həyatın mənşəyinin və canlıların qayıtdığı yerin rəmzidir.

Hazırkı simpozium "Mən görürəm və hiss edirəm" mövzusuna həsr olunub.

Mir Teymur Məmmədov deyir: "Gil canlı və ruhu olan unikal materialdır. O, təkcə Yer kürəsi haqqında məlumatları özündə saxlamır, həm də ünsiyyət vasitəsidir. Dünyanın müxtəlif ölkələrinə getmişəm, tanınmış, təcrübəli keramikaçılarla ünsiyyətdə olmuşam, onlarla işləmişəm, bir çox simpoziumlarda iştirak etmişəm və əminliklə deyə bilərəm ki, həmfikirlərin, xoşbəxt və öz sənəti ilə fədakarlıqla məşğul olanların arasında olanda dil maneələri aradan qalxır. Bu, onların sevimli sənəti ilə bağlı söhbətlərdə təbii haldır. "İncəsənət sərhəd tanımır və hüdudsuzdur", - deyə Mir Teymur Məmmədov qeyd edir.

# Şəhriyar Məmmədyarov FIDE reytinqində irəliləyib

**Beynəlxalq Şahmat Federasiyasının (FIDE) fevral ayı üçün reytinq cədvəli açıqlanıb.**

AZƏRTAC FIDE-nin rəsmi saytına istinadən xəbər verir ki, Şəhriyar Məmmədyarov ötən siyahı ilə müqayisədə 1 pillə irəliləyib. Aktivində 2731 reytinq xalı olan 40 yaşlı qrosmeyster 20-ci sıraya yüksəlib.

Teymur Rəcəbov (2698 xal) 32-ci pillədəki mövqeyini qoruyub. Rauf Məmmədov isə 2656 xalla 71-ci yerdə qərarlaşıb.



Azərbaycanın qadın şahmatçıları - Günay Məmmədzadə (2412 xal) 36-cı, Gövhər Beydullayeva (2404) 41-ci, Ülviyyə Fətəliyeva (2381 xal) 64-cü, Xanım Balacayeva (2355 xal) isə 89-cu sırada yer alıblar.

Siyahıya əvvəlkitək norveçli Maqnus Karlsen (2833 xal) başçılıq edir. ABŞ təmsilçilərindən Fabiano Karuana (2803 xal) 2-ci, Hikaru Nakamura (2802 xal) 3-cüdür.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3364
Sifariş 184

Qiyməti 60 qəpik